Günəş Şərqdən doğur!

❒ № 81 (5362), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 7 may 2021-ci il (cümə)



## Xalq artisti Arif Quliyev vəfat edib

(Səh.8)

### Günün içindən...



## Ən real variantdır

Baydenlə Putinin görüşü Bakıda keçirilə bilər

**ABŞ Prezidenti Co Baydenlə Rusiyanın dövlət başçısı Vladimir Putin arasında görüş Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilə bilər.**

Bu barədə məlumatı "Politico" nəşrinə ABŞ-ın keçmiş rəsmi şəxsləri və ekspertlər deyib.

(səh.8)

## Bəşəriyyət iqlim qəzasına yaxınlaşır



BMT-nin baş katibi xəbərdarlıq edib

(səh.4)

# Karantin rejimi elan olunmadı




## "Bayram günlərində yeganə məhdudiyyət ictimai nəqliyyatla bağlı olacaq"

**"Keçən ildən başlayaraq ÜST tərəfindən koronavirus pandemiyası elan olunub və bu, indi də davam edir".** Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın dünən keçirilən brifinqində Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib.

(səh.9)



# Lavrovu Qənimətlər Parkına aparmaq lazımdır

(səh.3)

## Ekspertlər təklif edir ki, bu prosedur ölkənin protokol proqramına salınmalıdır

✓ **"Zəfər yolu" sentyabradək istifadəyə veriləcək**

Qısa müddət ərzində görülmüş işlər nəticəsində yol boyunca gediş-gəliş təmin olunub (səh.2)

✓ **Sərdar Cəlaloğlu narazılığını bildirdi**

Monitorinq Mərkəzinin fəaliyyətinə dair davamlı məlumatlar olmalıdır (səh.6)

✓ **İndidən falçılıq etmək olmaz**

"Görünür Ülviyyə Mikayılovanı "Space" TV-yə təyin edənlərin öz arqumentləri var" (səh.7)

✓ **18 nəfər vəfat edib**

Son sutkada koronavirusa 844 nəfər yoluxub

(səh.8)

# Qarabağda quruculuq dövlət başçısının diqqət mərkəzindədir

*Samir Nuriyev azad olunmuş ərazilərdə həyata keçiriləcək fəaliyyətlərlə bağlı mühüm istiqamətlərin müəyyənləşdirildiyini bildirib*



**İşğaldan azad edilmiş ərazilərdə məsələlərin mərkəzləşdirilmiş qaydada həlli üçün Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının videoformatda növbəti, 5-ci iclası keçirilib.**

İclası açan Prezident Administrasiyasının və Qərargahın rəhbəri Samir Nuriyev işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinin dövlətimizin başçısının daim diqqət mərkəzində olduğunu, həyata keçiriləcək fəaliyyətlər ilə bağlı mühüm istiqamətlərin müəyyənləşdirildiyini qeyd edib.

Samir Nuriyev bildirib ki, Prezident İlham Əliyev tərəfindən də qeyd edildiyi kimi, işğaldan azad olunmuş torpaqlarımızda işğalçı Ermənistan tərəfindən şəhər və kəndlərimiz viran qoyulub, tarixi və dini abidələrimiz yerlə-yeksan edilib ki, bu da böyük miqyasda planlaşdırma və bərpa işlərinin həyata keçirilməsinin tələb edildiyini göstərir.

İclasda işğaldan azad edilmiş ərazilərdə həlledici əhəmiyyət kəsb edən minalardan təmizləmə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanıqlı inkişafı" Dövlət Proqramının hazırlanması istiqamətində görülən işlər, keçmiş məcburi köçkünlərin öz ata-baba yurdlarına qayıdışı, işğaldan azad olunmuş ərazilərdə enerji təminatı və xüsusilə də "Yaşıl enerji" məsələləri, şəhərsalma və nəqliyyat-rabitə infrastrukturunun qurulması, ADA Universiteti tərəfindən aparılan "Azərbaycanın postkonflikt ərazilərinə repatriasiyanın proqnozlaşdırılması və effektiv təşkili üzrə təkliflərin hazırlanması" tədqiqat işi çərçivəsində görülən işlər və keçirilmiş sorğuların nəticələri üzrə məruzələr dinlənilib və müvafiq tapşırıqlar verilib.

İclasda dövlətimizin başçısının tapşırıqlarına uyğun olaraq işlərin sürət və keyfiyyətin vəhdəti nəzərə alınmaqla aparılmasının vacibliyi vurğulanıb.

## Yüksək vəzifələrə təyinatlar olub

**Prezident İlham Əliyev İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinə və Dövlət Vergi Xidmətinə yeni rəis təyin edib.**

Mətin Balasən oğlu Eynullayevi İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini vəzifəsindən azad edilib. Dövlət başçısının digər sərəncamı ilə M.Eynullayev İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəisi təyin edilib.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə də yeni rəis təyin edilib. Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, bu vəzifəyə Orxan Faiq oğlu Nəzərli təyin olunub.

## ATƏT sədri Azərbaycanın 3 ermənini azad etməsini alqışlayıb

**ATƏT-in hazırkı sədri Ann Linde Azərbaycanın 3 ermənini azad etməsini alqışlayıb.**

Trend-in məlumatına görə, bu barədə A.Linde öz "Twitter" səhifəsində yazıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin nümayiş etdirdiyi humanizm siyasətinə uyğun olaraq, Azərbaycan bir neçə gün əvvəl Qarabağ müharibəsindən sonra saxlanılan təxribatçı erməni hərbçilərdən üçünü azad edib.

Rovert Vardanyan, Samvel Şuxyan və Seyran Tamrazyan Rusiya sülhməramlı qüvvələrinin komandanı Rüstəm Muradovun müşayiəti ilə Bakıdan Yerevana yola salınıb.

# "Zəfər yolu" sentyabradək istifadəyə veriləcək

Qısa müddət ərzində görülmüş işlər nəticəsində yol boyunca gediş-gəliş təmin olunub



**Şuşanın düşməndən azad edilməsinin mənəvi rəmzi olan "Zəfər yolu"nun dövlət başçısının tapşırıq və sərəncamına əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) tərəfindən genişləndirilərək inşası davam etdirilir.**

Bunu AAYDA-nın İctimaiyyətlə əlaqələr şöbəsinin rəisiAnar Nəcəfli deyib.

A. Nəcəfli bildirib ki, ötən il noyabrın 16-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı təməli qoyulmuş "Zəfər yolu" 2 ay ərzində genişləndirilib. Qısa müddət ərzində görülmüş işlər nəticəsində yol boyunca gediş-gəliş təmin olunub.

"Zəfər yolu"nun başlanğıcını Hacıqabul-Mincivan-Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürdüyünü qeyd edən A. Nəcəfli bildirib ki, Şuşa şəhərinə qədər yolun uzunluğu 101 kilometrdir: "Dövlət başçısının tapşırığına əsasən, "Zəfər yolu" Qarabağın inkişaf planı nəzərə alınmaqla 2 hərəkət zolaqlı olmaqla ikinci texniki dərəcəyə uyğun inşa edilir.

Artıq yolboyu genişmiqyaslı tikinti işləri həyata keçirilir. İş həcmi və layihənin qısa müddət ərzində yekunlaşdırılması tapşırığı nəzərə alınaraq tikintini Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin "16 nömrəli Xüsusi Təyinatlı Yol İstismarı" MMC və "7 nömrəli Magistral Yolların İstismarı" MMC ilə subpodratçı olaraq yol tikintisi sahəsində ixtisaslaşmış və ölkədə indiyədək bir neçə layihəni uğurla tamamlamış Türkiyənin "KOLİN" İnşaat Turizm San. və Tic. Anonim Şirkəti və "Azvirt" MMC birgə icra edir".

**A. Nəcəflinin sözlərinə görə, hazırda sözügedən avtomobil yolu boyunca torpaq işləri icra olunur:** "Xüsusi texnikalardan istifadə olunmaqla yolun profilə salınması və ikinci texniki dərəcəyə uyğun yeni torpaq yatağının inşası işləri həyata keçirilir. Bunun üçün tikinti ərazisinə lazımi sayda qüvvə cəlb edilib.

Yeni inşa edilən yol boyunca layihəyə uyğun olaraq suların ötürülməsini təmin etmək məqsədilə müxtəlif ölçülü 136 dairəvi boru və 14 düzbucaqlı su keçidləri, bundan başqa müxtəlif ölçülü 10 yeraltı keçid, həmçinin zəruri olan yerlərdə 4 avtomobil körpüsünün inşası da aparılır. Körpülərin uzunluqları 111.4, 45, 90 və 93.4 metr olmaqla yolun 26.9, 37.2, 37.6 və 57.3-cü kilometrlik hissələrində layihələndirilib. Bununla da bu avtomobil yolu ilə rahat gediş-gəliş təmin olunacaq.

"Zəfər yolu" inşası aparılan Əhmədbəyli-Füzuli-Şuşa yolu ilə 8 yerdə kəsişir və kəsişmələrdə yol ötürücülərinin tikintisi nəzərdə tutulub". (apa)

A. nəcəfli bildirib ki, tikintiyə cəlb olunmuş xüsusi texnikaların çevik hərəkətinin təmin olunması məqsədilə yol çiyinlərinin minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsinin sürütləndirilməsi ilə yolun asfalt-beton örtüyünün döşənməsi üçün hazır vəziyyətə gətirilməsi nəzərdə tutulur. Sözügedən prosesin həyata keçirilməsi ilə cari ilin sentyabr ayınadək yolun tam olaraq 2 hərəkət zolağı enində asfaltlanaraq istifadəyə verilməsi planlaşdırılır: "Tikinti işləri "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında həyata keçirilir. "Zəfər yolu" işğaldan azad edilmiş Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarının ərazisindən keçməklə inşa edilir. Avtomobil yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla sözügedən rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edəcək".



## "Türkiyə hər şeydə Rusiya ilə razı deyil"

Çavuşoğlu deyib ki, Türkiyə öz milli maraqlarını qorumalıdır və ölkənin təhlükəsizliyini təhdid altına qoya bilməz

**Moskva və Ankaranın fikirləri bir sıra məsələlərdə fərqlidir, lakin Rusiya ilə dialoqun açıq saxlanılması və əlaqələrin davam etdirilməsi lazımdır. Sputnik Azərbaycan xəbər verir ki, bunu Almaniyanın "Frankfurter Allgemeine Zeitung" nəşrinə müsahibəsində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib.**

Çavuşoğlunun sözlərinə görə, Ankara Moskva ilə qarşılıqlı işgüzar əlaqələr qurmağa çalışır.

Türkiyə XİN rəhbəri etiraf edib ki, Rusiya bəzi regional məsələlərdə aparıcı oyunçudur: "Müsbət nəticələri əldə etmək heç də həmişə asan deyil, lakin mümkündür. Bu o anlama gəlmir ki, biz bütün məsələlərdə eyni fikirdəyik. Lakin biz açıq danışmağı bacarırıq. Dialoq kanallarını açıq saxlamaq lazımdır".

Çavuşoğlu vurğulayıb ki, Türkiyə öz milli maraqlarını qorumalıdır və ölkənin təhlükəsizliyini təhdid altına qoya bilməz: "Rusiya bunu anlayır. Mümkün olduqda biz Rusiya ilə əməkdaşlıq edirik, ancaq lazım olduqda öz mövqeyimizi qoruyuruq".

O vurğulayıb ki, Rusiya ilə dialoq regional və beynəlxalq sabitliyə yardım etməlidir.



# Lavrovu Qənimətlər Parkına aparmaq lazımdır

## Ekspertlər təklif edir ki, bu prosedur ölkənin protokol proqramına salınmalıdır

"Protokol qaydası dedikdə, Azərbaycan Respublikasındakı diplomatik nümayəndəliklər, konsulluq müəssisələri və beynəlxalq təşkilatların nümayəndəliklərinin (bundan sonra - diplomatik nümayəndəlik) əməkdaşlarının və onların ailə üzvlərinin Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində (bundan sonra - Nazirlik) qeydiyyatını (bundan sonra - akkreditə olunmasını) tənzimləyir.

Ölkəmizdə protokol qaydaları 18 aprel 1961-ci il tarixli Diplomatik əlaqələr, 24 aprel 1963-cü il tarixli Konsulluq əlaqələri haqqında Vyana konvensiyalarına və Azərbaycan Respublikasının tərəfdar çıxdığı digər müvafiq beynəlxalq müqavilələrə, həmçinin Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə uyğun olaraq qarşılıqlı prinsipinin nəzərə alınması şərti ilə həyata keçirilir".

**Bu barədə "Şərq"ə Sosial Tədqiqatlar Mərkəzinin (STM) Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə ekspert Əziz Əlibəyli açıqlama verib.** O qeyd edib ki, protokol təkcə beynəlxalq konvensiyaların tələblərini, münasibətlərin ruhunu tənzimləmək üçün nəzərdə tutulmayıb, o, qaydaların,



ənənələrin və şərtlərin də toplusudur: "Yəni hər ölkə özünəməxsus milli adət-ənənələri protokol qaydalarına əlavə edə bilər ki, bu da dövlətin suverenliyinin bariz nümunəsidir.

Məsələn, hər hansı bir yüksəkvəzifəli rəsmi şəxs Moskvaya gedəndə naməlum əsgər abidəsini, Türkiyəyə səfər edən Atatürkün mavzoleyini ziyarət edir ki, bu da rəsmi protokol qaydasıdır.

İşğalçı Ermənistanda isə rəsmi protokola görə səfər edən əcnəbi dövlət başçıları mütləq qondarma erməni soyqırımı abidəsini ziyarət etməlidir. Saxta tarixi rəsmiləşdirmək və başqa dövlətin rəsmi şəxslərini bu teatra alət etmək İrəvanın rəsmi siyasətidir. Təəssüf ki, bu gün İrəvana səfərə gələn (gedən yox) Lavrov da bu gün eyni prosedura riayət edib. Azərbaycan Respublikası müstəqillik dövrü ərzində verdiyi qurbanlar və cəlb edildiyi müharibələr nəticəsində verdiyi itkilər sayəsində bütövlükdə bu kimi fəaliyyətlər müharibənin izlərini daşımalı olub. İtkilər, məğlubiyyət və bütün rayonların mərkəzində şəhidlər xiyabanı. Ən böyüyü isə Bakıdakı azadlıq qurbanlarının uyuduğu məzarıstan. İndi isə Vətən müharibəsi bütün reallıqları dəyişdirib, o cümlədən dünyada bizə olan münasibəti də yeni keyfiyyətə qaldırıb. Qalib ölkə kimi artıq öz ifadəsini və suverenliyini, dövlət gücünü bütün dünyaya da qəbul etdirmək zamanıdır. Əksər həmfikir dostlar kimi mən də təklif edirəm ki, müstəqil ölkənin protokol proqramına Qənimətlər Parkını ziyarət də salınmalıdır. İlk olaraq isə bu prosedur qayda Lavrovun bir neçə gün sonra Bakıya nəzərdə tutulan səfərində icra edilməlidir".

**Yeganə Bayramova**

---

# Rusiya Qarabağda anklav yaratmaq istəyir

Rusiyanın Xarici işlər naziri Sergey Lavrov Qarabağda dinc həyatın qurulması üçün aparılan prosesləri siyasiləşdirməməyə çağırış edib. Rusiya XİN rəhbəri bu sözləri İrəvanda erməni həmkarı Ara Ayvazyanla görüşün yekunlarına həsr olunmuş birgə mətbuat konfransında çıxışı zamanı deyib.

"İndi prosesi siyasiləşdirməyə ehtiyac yoxdur. Proses kifayət qədər çətin gedir. Çünki bu regionun birləşdirilməsi marşrutları ilə əlaqədar məsələlər həll olunur. Sərhədlərin delimitasiya və demarkasiya məsələləri həll olunur. Bunlar regionun rahat nəfəs alması və dinc həyat yaşaması üçün həll edilməsi lazım olan praktik, başa düşülən şeylərdir", - deyə S.Lavrov bildirib.

S.Lavrov qeyd edib ki, sözügedən məsələləri sonraya saxlayıb, əvvəlcə siyasi diskusiyalarla məşğul olmağa cəhd edənlər bütün prosesi altüst edir.

"İnsanlar - həm azərbaycanlılar, həm də ermənilər uzun onillər və yüzillər ərzində bir-biri ilə yaşadığı kimi normal yaşamağa başlayanda - siyasi məsələləri həll etmək daha asan olur", - deyə Rusiya XİN rəhbəri deyib.

O, bölgədəki iqtisadi əlaqələrin və nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması üçün Azərbaycan, Rusiya və Ermənistan baş nazir müavinlərinin rəhbərlik etdiyi üçtərəfli işçi qrupu tərəfindən regiondakı vəziyyətin normallaşmasına mühüm



töhfə verildiyini də qeyd edib.

"Bu işin uğuru ümumi vəziyyəti normallaşdırmaq və münaqişədən sonrakı dövrdə konstruktiv əməkdaşlıq qurmaq üçün lazımi şəraitin yaradılmasında həlledici olacaq", - deyə S.Lavrov vurğulayıb.

Nazir, həmçinin ATƏT-in Minsk qrupu həmsədrlərinin ilk növbədə etimad mühitinin yaradılmasına kömək üçün gələcək fəaliyyətlərinin zəruriliyini vurğulayıb.

**BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli rusiyalı nazirin Ermənistana səfərini "Şərq"ə şərh etdi:** "Rusiya Cənubi Qafqazı öz təsirində saxlamaq istəyir və buna müəyyən mənada nail olur. İndi isə prosesi daha da dərinləşdirir. Lavrov İrəvanda tərəflər arasında bioloji təhlükəsizliklə bağlı memorandum imzalayıb. Ermənistan həmişə bu sənədi imzalamaqdan boyun qaçırıb. Rus siyasətçiləri, o cümlədən Lavrov isə müntəzəm olaraq deyirdi ki, ABŞ-ın Ermənistanda bioloji laboratoriyaları var və orada sınaqlar aparılır. İndi sözügedən sənədin imzalanması, əlbəttə, Kremlin təzyiqi nəticəsində baş verib. Bu həm də ABŞ-a mesajdır. İkinci bir tərəfdən isə nazirlər arasında görüşdən sonra Lavrovla Ayvazyanın bəyanatları, demək olar, cümləbəcümlə

**Sevindirici məsələ odur ki, Moskva anlayır ki, Azərbaycan və Türkiyənin razılığı olmadan hər hansı addım atmaq mümkün deyil**

üst-üstə düşüb. Onların hər ikisi prosesləri siyasiləşdirməyə ehtiyac olmadığını söyləyiblər. Deməli, görüş tərəflərin biri-birlərinə etibarı əsasında baş tutub. Hərçənd, baş verənlər siyasi proseslərdir. Görünür, həmişə olduğu kimi, yenə də şimal qonşumuzun əməli ilə sözü üst-üstə düşmür".

*S.Məmmədlinin fikrincə, bu günlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla rusiyalı həmkarı arasında telefon danışığının olması da təsadüfi deyil:* "Görünür, hansısa ciddi məsələlər müzakirə olunur. Ankaranın isə Moskvanın bu davranışlarından xoşu gəlmir. Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlunun son açıqlaması dediyim fikri təsdiq edir. Liderlər arasında telefon danışığından sonra Kreml sözçüsü bəyanat verib ki, Qarabağ məsələsinin tənzimlənməsi barədə müzakirələr gedib. Sual yaranır: Putin indiyədək məsələnin həll olunduğunu demirdi?! Görünür, Rusiya Türkiyəni Cənubi Qafqazda fakt qarşısında qoymaq istəyir. Həmçinin Azərbaycana da təzyiqlər olacaq. Biz bunu Lavrovun ölkəmizə səfəri zamanı gündəmə gətiriləcək bəzi məsələlərdə görəcəyik. Sevindirici məsələ isə Rusiyanın Azərbaycan və Türkiyə ilə razılaşdırılmadan hansısa addım atmağın mümkünsüzlüyünü anlamasıdır. Moskva baş verən proseslərdə Ankaranı əsas "oyunçu"lardan biri kimi qəbul edir. İntensiv danışıqlar da bunu göstərir".

**Professor, həmçinin Rusiyanın Qarabağla bağlı planını açıqladı:** "Kreml həm Azərbaycana, həm də Ermənistana təzyiqlər etməyə çalışır. Moskva maraqlarından geri çəkilmir və Qarabağda anklav yaratmaq istəyir. Qondarma rejimin "başçısı" Araik Arutunyanın Hadrut və Qarabağ vilayətlərinin bərpası haqqında açıqlaması da təsadüfi deyil. Onun Moskvaya səfəri, müxtəlif vədlər verməsi, tikinti prosesləri ilə maraqlanması, belə demək mümkünsə, "əl-qol açması" Moskvanın Arutyunyanı ürəkləndirdiyini göstərir. Hər halda Kreml ikili oyun oynayır və çirkin niyyətlərini həyata keçirməyə çalışır".

**Kənan Novruzov**

# Yeni xəritə cızılır

## Liderlər telefon danışıqları zamanı Ağ Evə mesaj verdilər

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla ruiyalı həmkarı Vladimir Putin arasında telefon danışığı olub. Telefon danışığı zamanı tərəflər ikitərəfli əlaqələr, Suriya və Liviyadakı vəziyyət daxil olmaqla Qarabağ ətrafında cərəyan edən prosesləri, Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətini də müzakirə ediblər.



Rusiya-Türkiyə əməkdaşlığının konstruktiv xarakter daşıdığı qeyd olunub. Liderlər şəxsi təmasları davam etdirməyə və digər kanallar vasitəsilə müntəzəm ikitərəfli dialoqu inkişaf etdirməyə razılaşıblar. Putinin Ərdoğana zəngi ekspertlər tərəfindən geniş müzakirə olunmaqdadır. Xüsusən, Rusiya XİN başçısı Sergey Lavrovun İrəvanda səfərdə olduğu vaxt liderlərin Qarabağı müzakirəsi Rusiyanın regionda yeni mərhələyə hazırlığı kimi dəyərləndirilir. Putinin də bu haqda Ərdoğanı məlumatlandırdığı deyilir. Ümumən isə Putinin Ərdoğanı məlumatlandırması "Ankara ilə hesablaşma" kimi xarakterizə olunur.

**İki ölkə rəhbərinin telefon danışığını "Şərq"ə analiz edən politoloq Elçin Xalidbəyli vurğulayıb ki, Türkiyə və Rusiya arasında belə məsləhətləşmələr bundan sonra daha tez-tez olacaq.** Analitikin sözlərinə görə, liderlər arasında sonuncu təmasın Rusiya Xarici işlər naziri Sergey Lavrovun İrəvana səfərinə təsadüf etməsi xüsusi məqsəd daşıya bilər: "Kreml Türkiyənin Cənubi Qafqazda rolunu qabartmağa üstünlük verir. Ona görə də Prezident Vladimir Putinin Türkiyə lideri ilə danışması Rusiyanın Qarabağda deyil, Cənubi Qafqazda yeni dövrə hazırlanması anlamına gəlir. Məsələ ondadır ki, ABŞ yenidən Cənubi Qafqaza can atır. Prezident Co Baydenin "genosid" kəlməsini tələffüz etməsi də məhz bununla bağlıdır. "Genosid" kəlməsi ilə mövqeləri zəifləyib, Rusiyadan asılı vəziyyətə düşmüş "Soros"çu Paşinyan hakimiyyətini yenidən gücləndirməyə çalışdılar. Təbii ki, bütün bunlar Kremldə ciddi narahatlıq doğurur. Ona görə də ABŞ-ın bölgəyə dönüş cəhdlərini bloklamaq məqsədilə müxtəlif manevrlər edilir".

**Ərdoğanla Putin Cənubi Qafqazın gələcək taleyini həll edirlər**

*Siyasi şərhçinin fikrincə, indiki situasiyada Rusiya və Türkiyənin maraqları bəzi məsələlərdə uzlaşır:* "Xüsusilə, Ağ Ev sahibinin "genosid əməliyyatı" Türkiyə ilə Rusiyanın yaxınlaşmasına əlavə impulslar verir. Kreml bundan istifadə etmək niyyətindədir. Rusiya ABŞ və Qərbə mesaj verir ki, Cənubi Qafqazda bütün məsələlər Türkiyə ilə anlaşma çərçivəsində həll olunacaq. Türkiyə artıq Cənubi Qafqazda əsas geopolitik oyunçulardan biridir. Yəni Kreml Ağ Evə ABŞ-ın bir "genosid" kəlməsi ilə Ermənistan üzərindən Cənubi Qafqaza girə bilməyəcəyinin dolayısı mesajını verir. Cənubi Qafqazda Rusiya və Türkiyənin strateji tərəfdaş olduğunu göstərməyə çalışır. Kremldə ABŞ-Türkiyə münasibətlərinin yaxın vaxtlarda böhrandan çıxarılmasının mümkün olmayacağı qənaətinə gəliblər. Bu vəziyyətdən də Rusiyanın maraqları çərçivəsində yararlanmağa çalışırlar.

Təbii ki, belə vəziyyət həm də Ermənistan üçün əlavə təhlükə faktorları ortaya çıxara bilər. Kreml üçün qapazaltı olmuş Ermənistan daha sərfəlidir. Ona görə də, Ermənistana təhlükə törədən, bu ölkənin mövcudluğunu təhdid edən faktorlar Rusiyanın işinə yarayır. Məhz belə faktorlar xəyanətə meyilli ermənilərin Rusiyanın nəzarətində qalmasında xüsusi rol oynaya bilər".

**E.Xalidbəyli vurğulayıb ki, bütün bunları nəzərə aldıqda, Rusiya və Türkiyə prezidentlərinin son telefon danışığını Cənubi Qafqazın gələcəyi ilə əlaqələndirmək olar:** "Bu iki ölkə Cənubi Qafqazda ABŞ-ın maraqlarını hesaba qatmaq niyyətində olmadıqlarını sezdirməyə çalışırlar. Eyni zamanda telefon danışığında müzakirə edilən məsələlərin sırasının geniş olması da Ağ Evə mesajdır. Yəni Türkiyə və Rusiyanın ortaq maraqlarının daha geniş olduğu da qabardılır. Böyük ehtimalla Kremli sadəcə, Qarabağda deyil, ümumiyyətlə, regionda, hətta dünyada başlaya biləcək yeni dövr daha çox maraqlandırır və narahat edir. Belə vəziyyətdə isə həm Cənubi Qafqazda, həm də beynəlxalq arenada Türkiyə ilə strateji tərəfdaşlıq Rusiya üçün olduqca sərfəli variantdır".

**İsmayıl Qocayev**

## 4 min dollar istəyir

### Koçaryan Paşinyanı məhkəməyə verdi



**Yerevanda məhkəmə Ermənistanın sabiq prezidenti Robert Koçaryanın Nikol Paşinyana qarşı şikayətini qəbul edib.**

Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, R.Koçaryan N.Paşinyanı böhtan və iftirada ittiham edib.

Qeyd olunur ki, iddia ərizəsi R.Koçaryanın vəkilləri tərəfindən aprel ayında təqdim edilib.

*Sabiq prezident Nikol Paşinyandan 4 min dollar məbləğində təzminat tələb edir.*

## Bəşəriyyət iqlim qəzasına yaxınlaşır

### BMT-nin baş katibi xəbərdarlıq edib



**Ötən il Yer kürəsində havanın temperaturu milyon il ərzində rekord həddə qalxaraq, bəşəriyyəti iqlim qəzasına yaxınlaşdırıb.**

"Report" xəbər verir ki, bu barədə BMT-nin baş katibi Antoniu Quterreş bildirib.

"Ötən il illik ekstremal və iqlim kataklizmlərinin daha bir görünməmiş dövrü oldu", - baş katib deyib.

Onun sözlərinə görə, atmosferdəki karbon qazının konsentrasiyası ən yüksək səviyyəyə qədər yenilənərək sənayedən əvvəlki səviyyəni üstələyib.

Quterreş bunun Yerin istiliyinin üç dərəcə yüksək və dəniz səviyyəsinin 15 metr yüksək olduğu üç milyon ildə ən yüksək göstərici olduğunu vurğulayıb.

"Mövcud öhdəliklərə uyğun olaraq, hələ də əsrin sonuna qədər fəlakətli 2,4 dərəcə istilik artımına doğru irəliləyirik. Uçurumun astanasındayıq", - deyə BMT rəhbəri xəbərdarlıq edib.

Antoniu Qutterreş vurğulayıb ki, bəşəriyyət ən pis ssenarinin qarşısını almaq üçün daha təmiz və yaşıl inkişaf yoluna daxil olmaq girmək üçün birlikdə çalışmalıdır.

## Bir şagird maksimum bal topladı

### 376 nəfər imtahana gəlmədi



**Tam (11 illik) orta təhsil səviyyəsi üzrə 15-16 aprel 2021-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarında iştirakı nəzərdə tutulan 26491 nəfərdən 376 nəfər imtahana gəlməyib.**

Bu barədə DİM-in yaydığı məlumatda deyilir.

Bildirilib ki, tələb olunan imtahan qaydalarını pozduğu üçün yeddi nəfərin nəticəsi ləğv olunub.

İmtahan iştirakçıları arasında bir nəfər - Sumqayıt şəhəri, Texniki və təbiət elmləri liseyinin məzunu maksimal olan 300 bal toplayıb. Həmin şagird iki il əvvəl 9-cu sinif səviyyəsi üzrə buraxılış imtahanında da 296 bal toplamaqla yüksək nəticə göstərib.

Tələb olunan imtahan qaydalarını pozduğu üçün 7 nəfərin nəticəsi ləğv olunub.

*Qeyd edək ki, 22-23 aprel 2021-ci il tarixlərində keçirilmiş buraxılış imtahanlarının nəticələrinin bayramdan sonrakı həftə ərzində elan olunması nəzərdə tutulur.*

# Sən saydığını say, gör Bakı nə sayır?

## Ermənilər düşünür ki, Lavrov Azərbaycanın əlindəki terrorçuları qaytara biləcək



**Ermənistanda səfərdə olan Rusiya Xarici işlər naziri Sergey Lavrov erməni həmkarı Ara Ayvazyanla görüşüb. "TASS"ın məlumatına görə, görüş İrəvanın mərkəzindəki Xarici İşlər Nazirliyi binasında keçirilib.**

Qeyd edək ki, Lavrov 10-11 may tarixlərində Bakıya işgüzar səfər edəcək. Bu baxımdan hazırda rusiyalı nazirin ölkəmizə hansı məqsədlə gəlməsi davamlı müzakirə mövzusudur.

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli "Şərq"ə bildirib ki, Ayvazyan Lavrovun Bakıya səfərinin kodlarını açıb.** Bu, bütün erməni əsirlərinin qaytarılmasını təmin etməkdir: "Ayvazyan hesab edir ki, Lavrov gəlib Azərbaycandan bütün erməni "əsirlərin" qaytarılmasını istəyəcək. O hətta belə düşünür ki, Azərbaycan-Rusiya münasibətlərində "əsirlərin" geri qaytarılması qırmızı xətdir. Düşünürlər ki, müttəfiqləri olan Rusiya bu işləri həyata keçirməlidir. Bundan sonrakı dönəmdə də Azərbaycanın işğaldan azad etdiyi bölgələrə ermənilərin geri qaytarılmasına dair məsələlər müzakirəyə çıxarmalıdır. Digər məsələ humanitar yardımın göstərilməsi ilə əlaqədardır. Yəni ermənilər konkret olaraq humanitar fəlakət içindədir. Təbii ki, bu, ermənilərin baxışıdır. Amma doğrudanmı Lavrov məhz bu məsələlərə görə gəlir? Erməni düşüncəsində terrorçuların geri qaytarılması mövzusu yer tuta bilər. Amma Azərbaycanın Lavrovla bağlı tamamilə fərqli düşüncələri var. Azərbaycan Prezident səviyyəsində "İsgəndər-M", kommunikasiya məsələsi və Qarabağın taleyi ilə bağlı iddiaları bəyan edib.

Türkiyə Prezidentinin səfəri də gözlənilməndir. Bölgədə bu cür proseslər gedir. Azərbaycan Prezidenti sonuncu çıxışında xüsusilə erməni tərəfini hər zamankı ritorikanı davam etdirəcəklərsə, növbəti dəfə ciddi ruhla qarşılaşacaqlarını qeyd etdi. Bu kimi ciddi məsələlər olduğundan Lavrovun Bakıya səfərinin kodlarına baxmaq mümkündür".

**Yeganə Bayramova**

# 10 noyabr razılaşmasının bəndləri yenə pozulur



## İranın Azərbaycan ərazisinə qanunsuz soxulması dayandırılmalıdır

**"İrana məxsus yük avtomobillərinin Xankəndiyə naməlum yüklər daşıması və bununla bağlı narazılıq təbiidir. Bu, ilk növbədə Azərbaycan dövlət sərhədinin qanunsuz olaraq pozulması deməkdir".**

Bu barədə "Şərq"ə açıqlamasında Vəhdət Partiyasının sədr müavini, politoloq Vasif Əfəndiyev deyib. Partiya təmsilçisi qeyd edib ki, İran hakimiyyətinin qardaş xalq hesab etdiyi ermənilərə yardım göstərmək niyyəti var idisə, bunu mütləq bizim qanuni strukturlarımızla razılaşdırmalı idi: "Əgər İranın belə təşəbbüsü olsaydı, Azərbaycan hökuməti anlayışla yanaşardı. Həm də bu addım Qarabağda yaşayan erməni əsilli vətəndaşlarımızla körpü yaratmaq şansı olardı. Tehranın daşınan yüklərin "humanitar yardım" olması barədə bəyanatına inanmamaq üçün əlimizdə kifayət qədər əsaslar var. İranın niyyəti humanitar yardım idisə, bunu qaçaq yolla etməsi çox şübhəlidir. Bu addım eyni zamanda bölgəyə hərbi sursatın daşınması qadağalarının pozulmasıdır. Qonşu dövlətin bu sayaq davranışı ilk deyil. Torpaqlarımızın işğalda olduğu 30 il ərzində, eləcə də 44 gün davam edən Vətən müharibəsi zamanı mütəmadi olaraq separatçı rejimə hərbi texnika daşınması baş verib".

**Siyasi şərhçi vurğulayıb ki, İranın Azərbaycan ərazisinə qanunsuz soxulması əvvəllər nəzarətimizdə olmayan sərhəd rayonlarımız vasitəsilə edilirdisə, bu dəfə eyni davranış Laçın dəhlizindən keçməklə həyata keçirilir:** "Bu qanunsuz hərəkətin həm də Rusiya sülhməramlılarının iştirakı ilə baş tutması 10 noyabr sazişinin bəndlərinin pozulması deməkdir. Həmçinin, Rusiya və Türkiyə arasında razılaşdırılan ortaq nəzarətin prinsiplərinə ziddir. Hesab edirəm ki, Ağdamda yerləşən nəzarət punktları oyundankənar vəziyyətdədir və Türkiyənin nəzarət mexanizmini neytrallaşdırır. Laçın dəhlizi ilə bağlı ciddi tədbirlərin görülməsinə ehtiyac yaranıb. Baş vermiş hadisələr Laçının statusu ilə bağlı danışıqlara yenidən qayıtmağa bizə əsas verir. Münaqişənin aktiv hərbi fazasının durdurulmasından kifayət qədər zaman keçib. Mərhələli şəkildə ərazilərimizə nəzarəti ələ almağın zamanıdır".

**İsmayıl Qocayev**

## Rusiya regionda sabitliyə mane olur

### Pənah Hüseyn: "Bizi vadar etsələr, anti-terror əməliyyatlarına başlayacağıq"



**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov gürcüstanlı həmkarı David Zalkaliani ilə görüşdə regiondakı vəziyyəti müzakirə edib.**

Bu barədə Xarici İşlər Nazirliyi məlumat yayıb. C.Bayramov 44 günlük Vətən müharibəsindən sonra bölgədə yaranan yeni reallıqlar, mövcud əməkdaşlıq imkanları, dövlətlər arasında münasibətlərin normallaşdırılması üçün yaranan unikal vəziyyət, habelə üçtərəfli bəyanatın icrası ilə bağlı məsələlər, Ermənistanın üçtərəfli bəyanatın həyata keçirilməsinə manəə törədən davranışı və revanşist bəyanatları, bu xüsusda Azərbaycanın mövqeyi barədə həmkarını məlumatlandırıb. Bu isə o deməkdir ki, "Dəmir yumruq" hələ də havadadır

**Keçmiş baş nazir, Azərbaycan Xalq Partiyasının sədri Pənah Hüseyn növbəti müharibə ehtimalı barədə fikirlərini "Şərq"lə bölüşüb:** "Mövcud narahatlıq dövlət başçısı səviyyəsində də elan olunub. Ermənistanın revanşist meyillərini hamı bilir. Amma düşmənin müharibəyə başlamaq ehtimalı çox azdır. Buna baxmayaraq, qanunsuz silahlı birləşmələr torpaqlarımızdan çıxmasa və rəsmi İrəvan iddialarından əl çəkdiyini bildirməsə, Azərbaycan gec-tez anti-terror əməliyyatlarına başlamalı olacaq. Regionda sabitliyə mane olmaq istəyən qüvvələr var. Onlardan biri də Rusiyadır. Odur ki, bizi vadar etsələr, dediyim kimi, anti-terror əməliyyatlarına başlayacağıq. Ümumiyyətlə, Azərbaycan başladığı işi sonadək davam etdirməli və bütün torpaqlarımızda suverenliyimiz bərpa olunmalıdır. Biz bu iradəyə sahibik".

**Kənan**

## "Paşinyan Ermənistanda ən rasional siyasətçidir"

### O, cəmiyyəti inandıra bildi ki, ölkəsinin gələcəyi qonşularla münasibətdən asılıdır



**Ermənistan üçün prioritet məsələ kommunikasiya yollarının açılması və ölkənin blokadadan çıxması olmalıdır.**

Bu barədə Ermənistanın Baş naziri vəzifəsini icra edən Nikol Paşinyan deyib. Onun sözlərinə görə, dəmir yolu xətlərinin açılması Ermənistanda xammaldan daha səmərəli istifadəyə səbəb olacaq.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Əhəd Məmmədli deyib ki, Paşinyan Ermənistanda ən rasional siyasətçidir. Politoloq qeyd edib ki, Paşinyan yaxşı anlayır ki, Azərbaycan və Türkiyə ilə düşmənçilik Ermənistanı tam məhvə apara bilər:** "Ona görə də o və komandası Azərbaycanla Türkiyə münasibətlərinin qurulması, sərhədlərin açılması, kommunikasiyanın işə düşməsinin tərəfdarıdır. Həmçinin Ermənistan erməniləri də bunu yaxşı anlayırlar. Ona görə də Paşinyan bu gün Ermənistan cəmiyyəti üçün cəsarətli çıxışlar edir".

Politoloq əlavə edib ki, Nikol Paşinyanın seçkilərdə qalib gəlmək şansı yüksəkdir: "Hesab edirəm ki, Paşinyanın seçkilərdə qalib gəlmək şansı var. Çox güman ki, qalib də gələcək. Ona görə də Paşinyan müharibədən sonra apardığı siyasətin davamını aparır. Ermənistan cəmiyyətinə çatdırmaq istəyir ki, Ermənistanın inkişafının və gələcəyinin çıxış yolu məhz düşmənçilik yox, münasibətlərin yenidən qurulmasıdır. Amma bir şərtlə ki, Ermənistan rəsmən Qarabağı Azərbaycan ərazisini tanımalıdır".

**Aynurə**

# İtirilmiş zaman...

## ABŞ Türkiyə və Azərbaycanla münasibətlərini səhmana salır

"ABŞ dövlət katibi Entoni Blinkenin Prezident İlham Əliyevə zəng etməsi gecikmiş olsa da, hər iki tərəf üçün vacib idi". Bu sözləri "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu deyib. O, daha ətraflı "Şərq"ə danışıb:



"Telefon danışığında ABŞ-ın dövlət katibinin ikitərəfli münasibətlərinin inkişafına toxunaraq əlaqələrin daha da möhkəmləndirilməsinin önəmini bildirməsi, enerji təhlükəsizliyi, regional təhlükəsizlik sahələrində əməkdaşlığı qeyd etməsi, Cənub Qaz Dəhlizi layihəsinin uğurla icra edilməsinin əhəmiyyətini vurğulaması və Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyada iştirakını yüksək qiymətləndirməsi Vaşinqtonun Azərbaycana verdiyi dəyəri göstərir. Təsadüfi deyil ki, Entoni Blinken İlham Əliyevə bu il də "Azadlığa Dəstək Aktı"na 907-ci düzəlişin müvəqqəti dayandırıldığını bildirib. Əlbəttə, ədalətli olardı ki, bu düzəliş ümumiyyətlə, ləğv edilsin. Ancaq mühafizəkar və ermənipərəst Konqresdən bunu gözləmək əbəsdir. Ağ Evin illərdir düzəlişi dondurması da bizim üçün kafidir".

### "Vaşinqton bundan sonra bəyanatlarında diqqətli olacaq"

**E.Şahinoğlunun fikrincə, rəsmi Vaşinqton bundan sonra bəyanatlarında daha diqqətli olacaq:** "ABŞ dövlət katibinin İlham Əliyevlə məhz indi danışması ermənilərə "soyuq duş" effektidir. Çünki ermənilər neçə gündür ki, ABŞ Prezidenti Co Baydenin "erməni soyqırımı" ifadəsini işlətməsini toybayram edirlər. Halbuki, bu gün Dövlət Departamentinin açıqlamasında xüsusi qeyd edilib ki, prezidentin "soyqırım" ifadəsinin Türkiyə Cümhuriyyətinə aidiyyəti yoxdur. Oxşar açıqlama Pentaqondan da yayımlanıb. Ayrıca, Entoni Blinken telefonda İlham Əliyevin Amerika prezidentinin "erməni soyqırımı" ilə bağlı bəyanatının Azərbaycan hakimiyyəti və cəmiyyəti tərəfindən narahatlıqla qarşılandığı sözlərini də dinləməli olub. İlham Əliyevin dilindən "Türkiyə Azərbaycanın yaxın dostu və müttəfiqidir, postmüharibə dövründə bölgəmizdə çox önəmli və müsbət rol oynayır" sözlərini eşidən Blinkenə izah edilib ki, Türkiyə əleyhinə atılan istənilən addım Azərbaycana qarşı atılan addım kimi dəyərləndirilməlidir".

**Kənan**

# Azərbaycan və Gürcüstan dil tapıb anlaşmalıdır

## İki ölkə arasında sərhədlərin bölünməsi və təsdiqlənməsi məsələsinə dair müəyyən problemlər mövcuddur



Xarici işlər naziri Ceyhun Bayramov Bakıda rəsmi səfərdə olan gürcüstanlı həmkarı David Zalkaliani ilə Gürcüstan-Azərbaycan dövlət sərhədlərinin delimitasiya və demarkasiyası ilə bağlı müzakirə aparıb. Hər iki nazir qısa müddətdə komissiyanın iclasını çağırmaqla bağlı razılıqlarını və istəkli olduqlarını ifadə ediblər.

Qeyd olunub ki, bu məsələ müvafiq komissiyanın fəaliyyəti çərçivəsində Gürcüstan və Azərbaycan arasındakı strateji tərəfdaşlıq əlaqələrinə və hər iki ölkənin maraqlarına uyğun şəkildə həllini tapmalıdır.

**XİN başçılarının müzakirəsini "Şərq"ə təhlil edən politoloq Sədrəddin Soltan Azərbaycan və Gürcüstanın strateji müttəfiq olduğunu söyləyib:** "İki ölkə ərazisini birləşdirən bir sıra ortaq və beynəlxalq layihə var. Təəssüf ki, Azərbaycan-Gürcüstan arasında sərhədlərin bölünməsi və təsdiqlənməsi məsələsinə dair müəyyən problemlər mövcuddur. Bu problemləri də Gürcüstandakı ara qarışdırıcı qüvvələr yaradırlar. Çünki tarixən həmin ərazilər Azərbaycanın olub. Ümumilikdə götürdükdə o ərazilər Borçalıya daxildir və Borçalı da Azərbaycan türklərinin tarixi torpaqlarıdır. Sadəcə olaraq SSRİ gəldi və dünya dəyişdi. İndi isə SSRİ-dən qalma xəritə əsasında müttəfiq olan bütün ölkələrin sərhədləri müəyyənləşib".

*S.Soltan vurğulayıb ki, Azərbaycanla Gürcüstan arasında mübahisəli sayılan ərazilər SSRİ-dən qalan xəritələrə əsasən ölkəmizindir:* "Lakin Gürcüstandakı bəzi qüvvələr ermənilik edirlər. Hesab edirlər ki, guya, Gürcüstan Avropa ölkəsidir və Avropa İttifaqında (Aİ) bəzi qüvvələr onları dəstəkləyəcək, onlar da bu dəstək sayəsində torpaqlarımıza yiyələnəcəklər.

Ona görə də Gürcüstanla aramızdakı əsas problemli məsələ Keşikçidağ kilsəsidir. Gürcülər də bu əraziyə iddia edirlər ki, guya, həmin kilsə gürcülərin xristian məbədidir. Eynilə ermənilər Azərbaycan torpaqlarındakı qədim xristian məbədlərinə necə iddia edirdilərsə, gürcülər də həmin addımı atır.

Keşikçidağ məbədinin mənşəyinə dair Azərbaycan və gürcü mənbələri arasında tarixi konsensus mövcud deyil. Azərbaycan mənbələrinə görə, Keşikçidağ məbədi qədim alban mənşəli olub, Qafqaz Albaniyasının mədəni irsinə aiddir. Əksər gürcü mənbələri isə məbədin gürcü mənşəli olub tarixən Gürcü Pravoslav Kilsəsinə tabe olduğunu iddia edirlər.

Amma həm ermənilər, həm gürcülər, həm də dünyada onları dəstəkləyən havadarlar unudurlar ki, Azərbaycan türkləri islamdan əvvəl xristianlığı qəbul ediblər. Azərbaycanın xristianlıqla bağlı öz təriqəti olub. Təəssüf ki, gürcülərin baş keşişi və prezidenti bu cür təhrikedici məsələlərə imza atır. Lakin Gürcüstanda da tarixi və dünyanı yaxşı dərk edən adamlar kimin torpağının hara qədər olduğunu yaxşı bilirlər.

Tarixdə elə məsələlər var ki, münaqişə yaranmasın deyə onları bir müddət sonraya saxlayırlar. Hesab edirəm ki, gürcülərin iddialarını da zamana buraxmaq lazımdır. Sözügedən torpaqlarda Azərbaycan əsgərləri dayanır. Keçmiş Rusiya tarixi də həmin ərazilərin bizim olduğumuzu təsdiqləyir".

**Yeganə Bayramova**

## Sərdar Cəlaloğlu narazılığını bildirdi

### Monitorinq Mərkəzinin fəaliyyətinə dair davamlı məlumatlar olmalıdır



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.**

Bu barədə Kremlin mətbuat xidməti məlumat yayıb. Telefon söhbətində liderlər Qarabağ məsələsini, həmçinin Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətini müzakirə ediblər. Bundan başqa, Ərdoğan və Putin Liviya, Suriya münaqişələri, eləcə də pandemiya ilə mübarizə tədbirləri ətrafında fikir mübadiləsi aparıb.

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu "Şərq"ə bildirib ki, nədənsə, belə telefon danışıqlarında sülhməramlı qüvvələrin missiyası, üçtərəfli bəyanat və Monitorinq Mərkəzinin fəaliyyətindən daha az söhbət gedir:** "Daha çox Türkiyə-Rusiya və qlobal siyasətdə baş verən dəyişikliklər zamanı bu iki dövlətin mövqelərinin öyrənilməsi müzakirə edilir. Onsuz da bilirik ki, ruslar sülhməramlı qüvvələr deyil, onlar işğalçı qüvvələr olaraq bölgədədirlər. Monitorinq Mərkəzinin fəaliyyətinə dair davamlı olaraq rəsmi məlumatlar olmalıdır. Amma indiyə qədər bir dənə də olsun cəmiyyətə informasiya verilməyib. Rusiya Türkiyə ilə razılaşacağı təqdirdə qoşunlarını yığıb, bölgədən gedəcək. Razılaşmasa, Qarabağ ətrafında problem davam edəcək. Ona görə də Ərdoğanla Putin arasındakı telefon danışığı hər iki dövlətin strateji maraqlarının təmin edilməsində qarşılıqlı razılaşmaya həsr olunub".

**Yeganə**

# Zəngəzur dəhlizi heç bir ölkənin əleyhinə deyil

## *Anlamaq lazımdır ki, bu dəhliz bütövlükdə Cənubi Qafqazın iqtisadi inkişafına töhfə verəcək*

Xəbər verdiyimiz kimi ötən gün Prezident İlham Əliyev ölkəmizdə səfərdə olan Gürcüstanın Baş naziri İrakli Qaribaşvilini qəbul edib. Dövlət başçısı bildirib ki, iki ölkənin xalqları arasında münasibətlər uzun tarixə, əsrlər boyu davam edən yaxşı qonşuluq və dostluq tarixinə əsaslanır. Ölkə rəhbəri vurğulayıb ki, tərəflərin enerji və nəqliyyat layihələrinin birgə icrası ilə bağlı yaxşı tarixi var:

"Bu layihələr regionun siyasi, iqtisadi, nəqliyyat və energetika xəritəsini dəyişib. Ölkələrimiz arasında güclü tərəfdaşlıq olmasaydı, bu layihələrin icrası mümkün olmazdı". Baş nazir İrakli Qaribaşvili də vurğulayıb ki, iki ölkə rəhbərliyi birlikdə ən mühüm əhəmiyyət kəsb edən tarixi layihələr icra ediblər: "Bəxtimiz gətirib ki, biz qonşuyuq. Bu bizim taleyimizdir. Bir-birimizə çox bağlıyıq və qarşılıqlı əlaqədəyik. Münasibətlərimizi və qardaşlığımızı gücləndirəcək daha çox layihələrin birgə icrasını davam etdirməkdə tamamilə qətiyyətli və həvəsliyik". Məlumat üçün bildirək ki, Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Azərbaycana səfəri çərçivəsində həmkarı Əli Əsədov və Milli Məclisin sədri Sahibə Qafarova ilə də görüşüb. Həmçinin, Azərbaycan və Gürcüstan XİN rəhbərləri də görüşərək, ölkələrimiz arasındakı sərhəd məsələsinin müzakirəsini aparıblar.

Sirr deyil ki, zaman-zaman iki ölkə arasında müəyyən ziddiyyətli məqamlar da olub. Əsasən ermənilər tərəfindən iki ölkənin və xalqların qarşıdurmasına hesablanmış addımlar atılıb. Ara-sıra Tiflis hökumətinin davranışları da tənqid olunub. Son günlərdə isə daha çox vurğulanan odur ki, Gürcüstan Zəngəzur dəhlizinin reallaşmasından narahatdır.



**Qonşu ölkə ilə münasibətlərimizi "Şərq"ə təhlil edən millət vəkili Ceyhun Məmmədov bildirib ki, Gürcüstanla Azərbaycanın əlaqələri yüksək səviyyədədir.** Deputatın sözlərinə görə, iki ölkə arasında münasibətlərin əsası Ulu Öndər tərəfindən qoyulub və cənab Prezident tərəfindən uğurla inkişaf etdirilir: "Azərbaycanın mühüm enerji layihələri, nəqliyyat dəhlizləri Gürcüstan ərazisindən keçir. Rəsmi Bakı hər zaman, hər şəraitdə qonşu Gürcüstanla əməkdaşlığa xüsusi önəm verib. Hazırda Gürcüstana ən çox investisiya yatıran ölkə Azərbaycandır. Bu faktın özü göstərir ki, rəsmi Bakı ikitərəfli əlaqələrə ciddi yanaşır. Münasibətlərimizin dərin kökləri var. Amma ermənilər zaman-zaman əlaqələrimizin pozulmasına, əməkdaşlığın zədələnməsinə cəhdlər edirlər. Müxtəlif yollarla Azərbaycanla Gürcüstan arasında gərginlik yaratmağa çalışıblar. "Gürcüstan Zəngəzur dəhlizi ilə bağlı narahatdır" iddialarına gəldikdə isə əslində Zəngəzur dəhlizi sadəcə Azərbaycanın, Türkiyənin deyil, bütövlükdə Cənubi Qafqazın iqtisadi inkişafına öz töhfəsini verəcək. Anlamaq lazımdır ki, Zəngəzur dəhlizi hansısa ölkənin əleyhinə deyil. Dövlət başçısı da Gürcüstanın baş nazirini qəbul edərkən diqqətə çatdırdı ki, Azərbaycan tərəfi Gürcüstanla bir sıra layihələrin icrasında maraqlıdır. Azərbaycan və Gürcüstan rəhbərliyi, rəsmi nümayəndə heyətləri arasında baş tutan görüşlər ikili əməkdaşlığı daha da inkişaf etdirəcək və narahatlıq doğuran məqamlar tamamən aradan çıxacaq. Səfər çərçivəsində tərəflər bir sıra məsələləri ciddi müzakirə etdilər".

**Parlament üzvü vurğulayıb ki, Azərbaycan tərəfi 44 günlük Vətən müharibəsindən sonra regionda üçlü və altılıq əməkdaşlıq modelini təklif edib:** "Bu təklifdə məqsəd Cənubi Qafqaz ölkələrinin əməkdaşlığını daha da gücləndirməkdir. Qarabağ münaqişəsinin davam etməsi bölgədə sülhə və təhlükəsizliyə təhdid yaradırdı. Bu təhdidin aradan qalxması bütövlükdə regionun tərəqqisinə zəmin yaradacaq. Şübhə yox ki, tərəflərin görüşündə də Azərbaycan tərəfi öz yanaşmasını, planını, məramını Gürcüstan tərəfinin diqqətinə çatdırdı".

**İsmayıl Qocayev**

# İndidən falçılıq etmək olmaz








**"Görünür Ülviyyə Mikayılovanı "Space" TV-yə təyin edənlərin öz arqumentləri var, yəqin ki, arqumentləri kifayət qədər tutarlıdır"**

**İki gündür sosial şəbəkələrdə və bir sıra saytlarda müzakirə olunan mövzulardan biri də ADA Universitetinin dosenti, fəlsəfə elmləri doktoru Ülviyyə Mikayılovanın "Space" teleradio şirkətinə rəhbər təyin olunmasıdır. Yeni sədr fəaliyyətə başlamazdan öncə sosial şəbəkələrdə tənqid hədəfinə çevrilib.**

Əksəriyyət Ülviyyə Mikayılovanın televiziya sahəsindən uzaq olmasını əsas gətirərək telekanalın inkişafına töhfə verə bilməyəcəyini iddia edirlər. Ü.Mikayılova bu barədə ilkin açıqlamasını verib və vurğulayıb ki, yaxın vaxtlarda görəcəyi işlərlə bağlı açıqlama verəcək: "Bu təyinat mənim üçün bir az gözlənilməz oldu. Hələ ki, "Space" televiziyasında hansı işlərin görüləcəyi ilə bağlı nəsə danışmaq tezdir. Məni təzəcə təyin ediblər. Televiziyadakı işlərlə tanış olmalıyam. Allah qoysa, işlərlə tanış olandan sonra bu barədə danışaram. Kollektivlə ötəri tanış olmuşam. Sabahdan daha yaxından tanış olmağa başlayacağam. Artıq "Space"dəyəm". Məlumat üçün bildirək ki, Ülviyyə Mikayılova fizika və fizikanın tədrisi üzrə Bakı Dövlət Universitetini fərqlənmə ilə bitirib. İngiltərənin Mançester Universitetindən magistr dərəcəsinə, Tbilisi Dövlət Universitetindən fəlsəfə elmləri namizədi dərəcəsinə malikdir. 2004-cü ildən 2015-ci ilədək "Müasir Təhsil və Tədrisə Yardım Mərkəzi" İctimai Birliyinin direktoru vəzifəsində çalışıb. Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü olub.

**Təyinatla bağlı fikirlərini "Şərq"lə bölüşən tanınmış jurnalist, teleaparıcı Azər Həsrət bildirib ki, indidən nəsə demək tezdir.** Amma media nümayəndəsinin sözlərinə görə, başlanğıc o qədər də uğurlu görünmür: "Telekanala rəhbər təyin olunan xanımın televiziya sahəsi ilə yaxından-uzaqdan əlaqəsi yoxdur. Eyni zamanda biznes sahəsində də böyük uğurlar qazandığını əks etdirən məlumatlara rast gəlinmir. Hər halda məsələyə iki yöndə yanaşmaq lazımdır. Birincisi, informasiya ilə işləməkdirsə, ikinci tərəfi biznesi bacarmaqdır. Ancaq Ü.Mikayılovanın bəhs edilən iki sahə ilə əlaqəsi bilinmir. Xanım sədrin hansı potensiala malik olduğunu da bilmirik. Haradan biləк ki, o, nəyi bacaracaq, nəyi bacarmayacaq? Bu bir az falçılıq olar. Əlbəttə, təyinat vaxtı fikrimi soruşsaydılar, deyərdim ki, telekanal rəhbərliyinə media sahəsini bilən adamın təyin olunması daha məqsədəuyğun olardı. Xüsusən, operativlik və dəqiqlik tələb edən müasir zamanda media ilə işləməyi bacaran bir şəxsin televiziyaya rəhbər olması daha uyğundur. Lakin görünür, Ü.Mikayılovanı "Space" TV-yə təyin edənlərin öz arqumentləri var. Yəqin ki, arqumentləri kifayət qədər tutarlıdır. Biz nə deyə bilərik. İşi uğurlu olsun və "Space" TV-nin keçmiş şöhrətini geri qaytarsın".

**A.Həsrət xatırladıb ki, kanalın intellektual dövrü var idi, çox populyar televiziya idi:** "Mən də əvvəllər həmin kanalın canlı efirlərində olardım. Amma son illər "Space" TV-yə baxmağa belə meyillənmirəm. Arzu edirik, bizim kimi tamaşaçıların yenidən kanala köklənməsini bacarsınlar. Buna nail olub-olmayacaqlarını zaman göstərəcək. Xanım özü deyir ki, hələ iş yeri və kollektivlə təzə tanış olur. Bizə isə bir müddət gözləmək qalır. Hətta sədrin işi uğursuz olsa belə buna qarışacağımız yoxdur. Çünki özəl şirkətdir. Əgər kanalı inkişaf etdirə biləcəksə, uğur əldə edəcək və irəliyə gedəcək. Əks halda isə kanal batıb gedəcək. Azərbaycanda bunun bənzəri var".

**İsmayıl Qocayev**



## Bir çox ölkələrdə bu qayda var

### Vətən uğrunda, dövlətimiz uğrunda həlak olanların tabutu dövlət bayrağı ilə örtülə bilər

**Azərbaycan Respublikasının "Vətən müharibəsi Qəhrəmanı" adı və ya "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmiş, eləcə də Azərbaycan Respublikasının "Zəfər" ordeni, "Qarabağ" ordeni ilə təltif edilmiş həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılmış şəxslərin tabutu hərbi ehtiram göstərilməsi zamanı Azərbaycan Respublikasının Dövlət bayrağı ilə örtüləcək.**

Bununla bağlı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin qarnizon və qarovul xidmətləri Nizamnaməsinə dəyişiklik edilir.

**Mövzuya münasibət bildirən "Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı "Şərq"ə açıqlamasında bildirib ki, bir çox ölkələrdə bu qayda var.** O qeyd edib ki, bu, şəhidlərə edilən hörmətin, qiymətin göstəricisidir: "Vətən uğrunda, dövlətimiz uğrunda həlak olanların tabutu dövlət bayrağı ilə örtülə bilər. Bir çox ölkələrdə bu qayda var. Bu onlara xalqın, dövlətin ehtiramını və verdiyi qiyməti göstərir. Əlbəttə, yaxşı olardı ki, ehtiram təkcə bununla bitməsin. Onların ailəsinə sosial güzəştlər artırılsın, mənzil şəraitləri yaxşılaşdırılsın, adları əbədiləşdirilsin, haqlarında məqalə, roman və hekayələr yazılsın, sənədli və bədii filmlər çəkilsin. Yəni hesab edirəm ki, ehtiram həm mənəvi, həm maddi istiqamətdə göstərilməlidir".

**Aynurə**

## Böyük qayıdış reallaşır

### "Ermənistan buna mane olacağı təqdirdə lazımi cavabı alacaq"



**Ermənistanda səfərdə olan Rusiya Xarici işlər naziri Sergey Lavrov İrəvanda Baş nazir Nikol Paşinyanla görüşüb. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidməti məlumat yayıb. Ermənistanlı həmkarı Ara Ayvazyanla görüşdən sonra Paşinyanla müzakirələrin aparılması beyinlərdə suallar yaradıb.**

*Millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə görüş barədə fikirlərini "Şərq"ə şərh edib:* "Paşinyan istefa versə də, baş nazir vəzifəsini icra edir. Odur ki, Lavrovun onunla görüşməsi təəccüblü deyil. Həm Azərbaycana, həm də Ermənistana səfərdə məqsəd üçtərəfli bəyanatın tələblərinin yerinə yetirilməsidir. Ümid edirik ki, bu, Rusiyanın da maraqlarına cavab verir. Əks halda ciddi suallar və problemlər meydana çıxacaq. Hazırda Azərbaycanı maraqlandıran iki əsas məsələ var: Zəngəzur dəhlizinin açılması və böyük qayıdış. İnsanlarımızın Qarabağa köçməsi üçün ərazi minalardan təmizlənməli, müxtəlif infrastruktur layihələr həyata keçirilməlidir. Ermənistan buna mane olacağı təqdirdə lazımi cavabı alacaq. Rusiyanın üzərinə düşən vəzifəni yerinə yetirəcəyinə inanırıq. Ən azından Zəngəzur dəhlizinin açılması və minalı ərazilərlə bağlı ciddi addımların atılacağına ümid edirik. Onu da deyim ki, Lavrovun səfərindən əvvəl Azərbaycan üç diversantı qaytarması ilə öz humanist mövqeyini göstərdi".

**Kənan**

# Njdenin Qarabağdakı abidəsi sökülməlidir

## Rusiyalı veteranlar tələb edir



Rusiyalı veteranlar erməni Qaregin Njdenin Qarabağdakı abidəsinin sökülməsini tələb edib. Moskva vilayətindəki Dolqprudnı Müharibə, əmək, silahlı qüvvələr və hüquq-mühafizə orqanları veteranları İctimai Birliyi Njdenin abidəsinin qoyulmasını "faşizm tərəfdarlarının vəsfi" olduğunu bəyan edib.

Təşkilatdan bildiriblər ki, haqqında danışılan heykəlin Rusiya sülhməramlılarının faşizm üzərində Qələbə gününü qeyd edəcəyi yerdə olması yolverilməzdir.

Veteranlar məsələ ilə bağlı Rusiya xarici işlər və müdafiə nazirliklərinə müraciət ünvanlayıblar və bunu heykəlin olduğu ərazinin rusiyalı sülhməramlıların məsuliyyət daşıdığı ərazidə olması ilə əsaslandırıblar.



Mayın 4-də qondarma "Dağlıq Qarabağ Respublikası"nın təhlükəsizlik şurasının katibi Vitali Balasanyan da heykəlin sökülməsinin tərəfdarı olduğunu bildirib. Lakin yerli "deputat"lardan imtina cavabı alıb.

"Əgər aydın səbəb, aydın şərt yoxdursa, biz abidəni sökməyəcəyik", - deyə "Martuni" rayonunun Ağsaqqallar şurasının üzvü Artak Mkrtçyan bildirib.

Xatırladaq ki, Njdenin abidəsi Azərbaycanın Xocavənd rayonunda 2021-ci ilin yanvarında, müharibə zonasında rusiyalı sülhməramlıların xidmətə başlamasından sonra quraşdırılıb.

Azərbaycan, Rusiya və Ermənistan liderlərinin Qarabağ üzrə üçtərəfli bəyanatı 2020-ci il noyabrın 10-da imzalanıb. Bəyanata əsasən, Dağlıq Qarabağ münaqişə zonasında 2020-ci il noyabrın 10-u saat 00:00-dan etibarən bütün hərbi əməliyyatların dayandırılması və tam atəşkəs barədə razılaşıblar.

Bəyanata görə, Ağdam rayonu 2020-ci il noyabrın 20-də, Kəlbəcər rayonu noyabrın 25-də, Laçın rayonu isə dekabrın 1-də Azərbaycana qaytarılıb. Bununla yanaşı, təmas xətti və Laçın dəhlizi boyunca Rusiya Federasiyasının sülhməramlı kontingenti yerləşdirilib.

**Aynurə**

# Ən real variantdır

## Baydenlə Putinin görüşü Bakıda keçirilə bilər



### Ekspertlər hesab edir ki, Azərbaycanın bu dialoqa şərait yaratmaq üçün təhlükəsizlik və etibarlılıq təcrübəsi var

ABŞ Prezidenti Co Baydenlə Rusiyanın dövlət başçısı Vladimir Putin arasında görüş Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilə bilər. Bu barədə məlumatı "Politico" nəşrinə ABŞ-ın keçmiş rəsmi şəxsləri və ekspertlər deyib.

Mənbənin yazdığına görə, mühüm görüşün keçiriləcəyi digər məkanlar sırasında İslandiyanın paytaxtı Reykyavik, Çexiyanın paytaxtı Praqa, Sloveniyanın paytaxtı Lyublyana və Polşanın paytaxtı Varşava şəhərinin adı çəkilir. Xəbərdə həmçinin qeyd olunur ki, Çexiya ilə Moskva arasındakı münasibətlərin kəskin pisləşməsi, Praqanın seçilməsi ehtimalını azaldır.

**Siyasi şərhçi Asif Nərimanlı görüşün nə üçün paytaxtımızda keçiriləcəyi və bunun rəsmi Bakıya gətirəcəyi dividendlər barədə "Şərq"ə danışıb:** "ABŞ və Rusiya başçılarının görüşməsi üçün bir neçə yer təklif edilir. Bunlardan biri Çexiya, Bakı və Skandinaviya ölkələridir. Hazırda Çexiyanın Rusiya ilə müəyyən problemlərinin olduğu üçün bu ölkədə görüş arxa plana keçir. Fikrimcə, Bakı variantı daha məqbul hesab oluna bilər. Çünki Skandinaviya ölkələri nə qədər neytral görünsələr də, Rusiyanın Avropa ilə şimal sərhədlərini təşkil edir. NATO-nun həmin ölkələrdə aktivliyi həmişə Rusiyanın narahat olmasına səbəb olur".

**Analitik vurğulayıb ki, Baydenin prezident seçilməsindən sonra Amerika-Rusiya qarşıdurmasının daha aktiv fazaya keçməsi Rusiya prezidentinin məhz həmin ölkəyə getməsi üçün problem yarada bilər:** "Çünki belə görüşlərdə iki əsas məqam var: Birincisi, təhlükəsizlik. İkincisi, etibarlılıq, yeni informasiyanın sızmaması. Skandinaviya ölkələrində də Rusiya üçün belə təhlükələr ola bilər. Bakının isə təhlükəsizlik və etibarlılıq təcrübəsi var. Bilirik ki, NATO-nun hərbi rəhbərliyi ilə Rusiyanın Baş Qərargah rəisi zaman-zaman Azərbaycanda görüşüblər. 2019-cu ildən sonra ölkəmizdə 5 dəfə belə görüş olub. Hər görüşdə təhlükəsizlik və etibarlılıq diqqətə alınıb, hansısa problem yaşanmayıb. Bu fakt ABŞ və Rusiya rəhbərlərinin Bakını seçməsi üçün önəm daşıyır. Digər maraqlı məqam odur ki, məhz Qarabağ münaqişəsindən sonra Cənubi Qafqaz Amerika və Rusiyanın əsas mübarizə apardığı ərazilərdən biridir. Tərəflərin mübarizə apardıqları bu bölgədə addımlar atmaq üçün öz aralarında razılığa gəlmələri mümkündür. Ölkəmizin təcrübəsi imkan verir ki, Putin və Baydenin görüşü paytaxtımızda keçirilsin".

**Yeganə Bayramova**

# İtkin düşmüş hərbçinin 7 ay sonra nəşi tapılıb

## Şəhid bü gün böyüyüb boya-başa çatdığı kənddə dəfn olunacaq



**Vətən müharibəsində itkin düşmüş daha bir hərbçinin nəşi tapılıb.**

Bu barədə APA-ya şəhidin qardaşı məlumat verib.

Vətən müharibəsinin ilk günlərindən itkin düşən Lerik rayonu, Anbu kənd sakini 1989-cu il təvəllüdlü kapitan Rəhmətov Əbülfəz Hüseynverdi oğlunun Cəbrayıl rayonu ərazisində nəşi tapılıb.

Şəhid bu gün böyüyüb boya-başa çatdığı kənddə dəfn olunacaq.

*Qeyd edək ki, kapitan Ə.Rəhmətov Qubadlı və Cəbrayıl rayonları uğrunda gedən döyüşlərdə iştirak edib.*

**Allah rəhmət eləsin!**

# Xalq artisti Arif Quliyev vəfat edib



**Xalq artisti Arif Quliyev vəfat edib.**

Bu barədə APA-ya mərhum aktyorun oğlu Rövşən Quliyev məlumat verib.

Qeyd edək ki, bir müddət əvvəl koronavirusa (COVID-19) yoluxan Xalq artisti "Yeni Klinika"da müalicə olunurdu.

Vəziyyəti ağır olan aktyor süni tənəffüs aparatına qoşulmuş, ağ ciyərlərinin doxsan faizi buzlaşmışdı.

**Allah rəhmət eləsin!**




# 18 nəfər vəfat edib

## Son sutkada koronavirusa 844 nəfər yoluxub

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 844 yeni yoluxma faktı qeydə alınıb, 2057 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 18 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 324 685 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 301 006 nəfər müalicə olunaraq sağalıb, 4 635 nəfər vəfat edib, aktiv xəstə sayı 19044 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 717, ötən müddət ərzində isə ümumilikdə 3 300 581 test aparılıb.

# O günə az qalıb...

## Paşinyan seçkilərdən sonra bütün iddialarını donduracaq

"Bu gün Ermənistanın Azərbaycan və Türkiyə ilə əməkdaşlıq etməkdən başqa alternativi yoxdur".

Bunu "Şərq"ə açıqlamasında millət vəkili Azər Badamov deyib. Deputat bildirib ki, əgər Ermənistan əməkdaşlıq etməkdən boyun qaçırsa, daha çox tənəzzülə gedəcək və ermənilərin ölkəni tərk etmələrini sürətləndirəcək:



### Baş nazir Azərbaycan və Türkiyə ilə əməkdaşlıqda daha maraqlı olacaq

"Ermənistan tərəfi bundan sui-istifadə edib, normal qonşuluq münasibətləri əvəzinə, yenə sərsəm iddialar arxasınca düşəcəkmi? Hazırda Ermənistanda revanşist fikirlərin və yenidən torpaqlarımızın işğalı kimi sərsəm ideyaların səsləndirdiklərini eşidirik. 44 günlük Vətən müharibəsində Ermənistan ordusunu məhv etdik. Yenidən müharibə üçün ordunun formalaşmasına on illər lazım olacaq. Ermənistanın ictimai-siyasi vəziyyəti özünün ən ağır və gərgin günlərini yaşayır. Müxalifət də, iqtidar da 20 iyunda keçiriləcək parlament seçkilərində qalib olmaq üçün xalqın xoşuna gələn revanşist düşüncələr və Azərbaycana qarşı ittihamlar səsləndirirlər. Düşünürəm ki, Ermənistanda baş verən bütün bu revanşist ideyalar seçkiyə qədər davam edəcək. Paşinyanın seçkidə qalib olmaq şansı digərlərindən daha çoxdur və düşünürəm ki, o, yenidən baş nazir seçiləcək. Paşinyan yenidən öz yerini möhkəmlədəndən sonra bu gün Azərbaycana qarşı səsləndirilən bütün iddialarını sonlandıracaq. Azərbaycan və Türkiyə ilə əməkdaşlıqda daha maraqlı olacaq".

Parlament üzvü qeyd edib ki, ABŞ-ın regiona marağı artdıqca, Rusiya bölgədə daha da möhkəmlənmək istəyəcək və müəllifi olduğu üçtərəfli bəyanatını icra olunmasını sürətləndirməklə yeni əməkdaşlıq mühitinin formalaşmasına töhfə verəcək: "Rusiya Cənubi Qafqazda Amerikanın olmasında maraqlı deyil. Moskva regionda Azərbaycanla əməkdaşlığa üstünlük verdiyini ifadə edir, həmçinin, Ermənistanı da bu əməkdaşlığa cəlb etməyə çalışır. Sirr deyil ki, Ermənistan iqtisadiyyatı və hərbisi birbaşa Rusiyanın əlindədir. Rusiyasız Ermənistan heç nədir. Rusiya isə Azərbaycanın və Türkiyənin imkanlarından istifadə etməklə Ermənistanı yeni əməkdaşlıq mühitinə cəlb etməkdə maraqlıdır".

**İsmayıl**

# Karantin rejimi elan olunmadı

"Keçən ildən başlayaraq ÜST tərəfindən koronavirus pandemiyası elan olunub və bu, indi də davam edir". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın dünən keçirilən brifinqində Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu departamentinin müdiri Yaqut Qarayeva deyib. O bildirib ki, dünyada bu xəstəlik səbəbindən həyatını itirənlərin sayı 3 milyondan çoxdur:








## "Bayram günlərində yeganə məhdudiyyət ictimai nəqliyyatla bağlı olacaq"

"Son dövrlər Hindistandakı yoluxma sayı bizi narahat edir. Bunu çox narahatlıqla izləyirik. Hindistanda hər gün yoluxma və ölüm saylarında rekordlar qırılır. Artıq rəsmi olaraq təsdiq olunub ki, Hindistanda virusun yeni mutasiyası qeydə alınıb. Mutasiyalar viruslara xas olan prosesdir. Hələ ki, Hindistanda aşkarlanan mutasiya və ştammın xəstəliyin ağırlaşmasına səbəb olması ilə bağlı araşdırmalar yoxdur. Azərbaycanda da bunu aşkarlamaq üçün testlər aparılır. Ancaq hələ buna rast gəlinməyib. Yeni məlumat olsa, açıqlama verəcəyik. Ən çox yeni yoluxmanı noyabr və dekabr aylarında gördük. Bu zaman aparılan testlərdə 30 faiz pozitiv nəticələr var idi".

**Azərbaycanda epidemioloji vəziyyətə nəzarət stabildir**

Y.Qarayeva qeyd edib ki, yanvarın 18-dən Azərbaycanda vaksinasiya prosesi başlayıb: "Bundan sonra yoluxma maksimum 2000-2500-ə çatdı. Bu gün biz kəskin karantin rejiminə getmədən sosial həyatda bəzi aktivlikləri saxlayaraq, yoluxma sayında enmələr müşahidə edirik. Yoluxma əmsalı 10 faizə yaxınlaşır. Bu, çox yaxşı vəziyyətdədir. Bu gün Azərbaycanda epidemioloji vəziyyət nəzarət altındadır. Pandemiyanın ilk günlərindən bu günə qədər koronavirusa yoluxmanın yaş qruplarında vəziyyət dəyişməyib". O əlavə edib ki, qadın və kişilər arasındakı bölgü də dəyişməyib: "Ən çox yoluxma qadınlarda rast gəlinir. Rayonlarda bu gün diqqəti cəlb edən heç nə yoxdur, vəziyyət stabildir. Bakıda Binəqədi və Xətaidə yoluxmalar hər zaman yüksək olub. Bu gün ölkəmizdə epidemioloji vəziyyət stabildir. Karantin şəraiti və vətəndaşlarımızın qaydalara əməl etməsi bizi bu məqama çatdırıb. Müəyyən səbəblərdən peyvənd olunması tövsiyə edilməyən şəxslərlə bağlı hələ heç bir qərar yoxdur. Onların ölkə xaricinə çıxış qaydalarına dair qüvvədə olan heç bir məsələ yoxdur. Bu gün bütün dünyada ölkələr arasında gediş-gəliş PCR testi əsasında təmin edilir. Ölkədə də giriş-çıxış qaydaları bəllidir. Hələ heç bir qərar qəbul edilmədiyi üçün heç nə demək mümkün deyil. Sərhədlər də bağlıdır. Gələcəkdə hansı qərarlara gəlinsə, bu barədə yenilik olarsa, ictimaiyyətə məlumat veriləcək".

**Dünyada vaksin uğrunda həqiqi müharibə gedir**

Azərbaycan Respublikası Səhiyyə nazirinin birinci müavini, səhiyyə naziri əvəzi Teymur Musayev brifinqdə çıxışı zamanı deyib ki, vaksinasiyanın əsas prinsipləri könüllülük, şəffaflıqdır: "Bu prinsipləri tam qorumaqla vaksinasiya kampaniyası yanvar ayından başlayaraq uğurla aparılır. Səhiyyə qrupları arasında demək olar 90 faiz vaksinasiya aparılıb. Təhsil sektorunda çalışanlar da bu rəqəmə yaxınlaşır. Son 2 həftə ərzində çarpayı fondunda yatan xəstələrin sayı azalmaqdadır. Bəlli olduğu kimi, dünyada vaksin uğrunda həqiqi müharibə gedir. Ölkələr arasında vaksinlərin bölgüsü qeyri-ədalətlidir. Prezidentimizin beynəlxalq nüfuzu sayəsində ölkəmizə vaksinlərin davamlı gətirilməsi tam təmin edilib. Ölkəmizdə tətbiq olunan hər bir vaksin təhlükəsizdir".

**18 yaşına çatmış bütün vətəndaşlar vaksinasiyaya qatıla bilər**

T.Mirzəyev bildirib ki, iki dozanı almış vətəndaşlar arasında yoluxma sayları çox aşağıdır: "Yoluxanlar da xəstəliyin ağır mərhələsini keçirmirlər. May ayının 10-dan etibarən Azərbaycanın bütün ərazisində 18 yaşına çatmış bütün vətəndaşlar vaksinasiyaya qatıla bilər. Bu kampaniyaya qoşularaq qısa müddətdə normal həyata qayıdışı təmin etmək olar. Vaksinasiya olunmaq heç də həmin infeksiyadan digər qorunma vasitələrindən imtina etmək mənasını daşımır. Hazırda maska, gigiyena, sosial məsafə qaydalarına əməl etmək məcburidir. Elmi çevrələrdə vaksinasiyanın hər il mövsümi aparılacağı danışılır. Qrip vaksini kimi koronavirus vaksini də hər il vurula bilər. Bununla əlaqədar Avropa və ABŞ vaksin istehsalçıları ilə ölkəmiz danışıqlar aparır".

**T.Musayev deyib ki, bayram günlərində yeganə məhdudiyyət ictimai nəqliyyatla bağlı olacaq:** "Əlavə heç bir məhdudiyyət tətbiq olunmayacaq: "Nazirlər Kabinetinin bu qərarını xatırlatmaq istədim. Hər birinizdən vaksinasiyaya qoşularaq, ölkəmizi, yaxınlarımızı, normal həyata qaytarmağı xahiş edirəm. Qeyd edək ki, Ramazan bayramı ilə əlaqədar mayın 8-dən 16-dək ölkədə bayram günləridir. Həmin günlər ölkə ərazisində ictimai nəqliyyatın fəaliyyəti dayandırılacaq".

**Aynurə Pənahqızı**

# Xəstəliyi ev şəraitində keçirənlərin sayı artır

## Türk mütəxəssis evdə karantinin 15 "qızıl" qaydasını açıqlayıb

Koronavirus "ailə xəstəliyi" şəklini alıb. Ailədə bir nəfərin yoluxması ailənin digər üzvlərinin də yoluxma riskini artırır. Mütəxəssislərin qənaəti budur ki, eyni mənzildə, ümumi ortamda yaşayan insanlar arasında bir nəfərin yoluxması digər fərdlərin də yoluxmasına yol açır. Lakin "COVİD-19" pandemiyası davam etdiyi müddətdə fərqli hallara da şahid oluruq.

Ailədə bir nəfərdə koronavirus testinin nəticəsi müsbət çıxır, ailənin digər üzvündə isə pozitiv. Hətta həyat yoldaşları arasında da koronavirusa yoluxmayanlar olur. Bu, orqanizmin müqavimət qabiliyyətindən də asılıdır. Bu da məlumdur ki, xəstəliyi ev şəraitində keçirənlərin sayı son zamanlar artıb. Mütəxəssislər karantin müddətini ev şəraitində keçirən xəstələrə həyəcana qapılmadan önləm almalarını tövsiyə edirlər.

**Türkiyədə mikrobiologiya üzrə mütəxəssis İpək Ada Alver ev şəraitində karantin müddətində nələrə diqqət edilməli olduğunu anladıb. Evdə karantinin 15 "qızıl" qaydası:**

**1.** Test cavabı müsbət çıxmış doğmanıza karantin qaydalarına əməl etməkdə dəstək olun, onu buna təşviq edin.

**2.** COVİD-19 xəstəsini zəruri ehtiyac duyacağı əşyalar, dərmanlar, təmiz yataq dəstləri ilə birlikdə yataq yeri olan ayrıca bir otaqda izolyasiya edin.

**3.** Yeməyi birdəfəlik plastik qablarda verin, fincan, stəkan, bıçaq, qaşıq kimi əşyaları məcməyidə otağın qapısı önünə qoyun və istifadə edildikdən sonra onları isti su ilə yaxşıca yuyun. Qaşıq, çəngəl, stəkanlar da birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik əşyalar ola bilər.

**4.** Otağın havası tez-tez dəyişməlidir. Oksigenin otağa mümkün qədər çox daxil olmasını təmin edin.

**5.** Xəstə otaqda təkdirsə, tibbi maskadan istifadəyə gərək yoxdur. Amma otağa daxil olsanız, ailə üzvünə 4 addımdan artıq yaxınlaşmayın, təmas yaratmayın və ikiqat maskadan istifadə edin.

**6.** Otaqdakı adamla təmas az olsun deyə, onunla mobil telefon vasitəsilə əlaqə saxlayın. Vəziyyətini tez-tez öyrənin. Onu ruhlandırın. Bütün xəstəliklərdə olduğu kimi koronavirus xəstəliyində də mənəvi dəstək çox önəmlidir.



**7.** COVİD-19 xəstəsinin spirtli içki və siqaretdən uzaq durmasını təmin edin.

**8.** Xəstə qapı, pəncərə dəstəklərini əlcəklə tutmalıdır.

**9.** İzolyasiya olunmuş xəstə tualet və hamamdan hər dəfə istifadə etdikdən sonra orda yuyucu, dezinfeksiyaedici vasitələrlə təmizlik aparın, birdəfəlik dəsmallardan istifadə edin. Bundan əlavə həftədə ən azı iki dəfə mənzili dezinfeksiyaedici maddələr qatılmış su ilə, ya da sirkə qarışıqlı su ilə təmizləyib havalandırın.

**10.** Ailənin xəstə üzvünün geyim əşyalarını ailənin digər üzvlərinin əşyalarına qarışdırmayın, paltarları bir yerdə yumayın.

**11.** Xəstənin istifadəsində olub zibil yeşiyinə atılacaq əşyaları da ayrıca selofan paketin içinə toplayın və o şəkildə atın. Zibilləri evdə saxlamayın, hər gün evdən çıxarmağa çalışın.

**12.** Xəstə bol su, maye qəbul etməli, karantin müddətində vitamin qəbuluna diqqət etməlidir. Zəncəfil, bal, arı südü, polen, propolis, probiotik, bəhməz, mövsüm meyvələri, bitki çayları, soğan, sarımsaq, toyuq bulyonu, qırmızı kələm, hər cür pencər, tərəvəz kimi immuniteti gücləndirən qidaları qəbul etməsinə çalışın.

**13.** Əgər xəstənin qoxubilmə qabiliyyəti itibsə, otağa ətirli bitkilər və ya ətri olan digər əşyalar qoyub qoxubilmə qabiliyyətinin nə zaman bərpa olunduğuna nəzarət edin.

**14.** Xəstəyə xüsusi olaraq tənəffüs yollarını fəallaşdırmaq üçün nəzərdə tutulan fiziki hərəkətlər etdirin.

**15.** Bütün ailə üzvləri əllərini karantin qaydalarında nəzərdə tutulan şəkildə ən azı 30 saniyə ərzində sabun və normal hərarətli su ilə yumalıdır.

**Məlahət Rzayeva**

# Almaniya bir daha Türkiyənin rəğbətini qazandı



*Qardaş ölkə əleyhinə Avropa Birliyində sanksiya qəbul olunmadı*

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Almaniya kansleri Angela Merkel arasında görüş keçirilib. "Haber Global" Türkiyə Prezidenti Administrasiyasının İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata əsasən xəbər verir ki, görüş videokonfrans formatında təşkil olunub. Görüş zamanı ikitərəfli münasibətlər və regional məsələlər müzakirə edilib.

Prezident Ərdoğan Almaniyanın növbəti seçki müddətinə daxil olduğunu qeyd edərək, bu dövrün ölkə üçün faydalı şəkildə bitəcəyini arzulayıb və yaxın gələcəkdə formalaşacaq yeni hökumət zamanında da Türkiyə-Almaniya əlaqələrinin strateji baxışla inkişafına inandığını bildirib.

Dövlət başçısı Türkiyə-Avropa İttifaqı əlaqələrində yaranmış müsbət dəyişikliklərin qorunub saxlanmasının vacibliyini vurğulayıb, İttifaq üzvü olan Yunanıstanın təhrikedici hərəkətləri, Ege dənizində miqrantların hüquqa və vicdana zidd olaraq, geri qaytarılması hallarının daha da artmasına baxmayaraq, Türkiyənin Aİ ilə münasibətlərdə konstruktiv mövqeyini qoruduğunu qeyd edib.

"Almaniya Türkiyəni özünə dost, strateji tərəfdaş kimi görür"

**Politoloq Natiq Miri "Şərq"ə açıqlamasında tərəflər arasındakı əlaqələrin tarixi köklərindən danışdı:** "Türkiyə ilə Almaniya arasında xüsusi əlaqələr var. Bildiyiniz kimi, hər iki dünya müharibəsində Almaniya Türkiyənin müttəfiqi olub. Əlbəttə, bu əlaqələrdə qardaş ölkənin geosiyasi mövqeyi də nəzərə alınır. Almaniya Türkiyənin imtina edilməz dövlət olduğunu bilir. İkinci bir tərəfdən, Almaniyada milyonlarla türk vətəndaşı yaşayır ki, bu da həmin ölkənin iqtisadiyyatı üçün ciddi töhfədir.

Həmçinin bir çox Avropa dövlətlərinin, o cümlədən Fransanın Türkiyə ilə gərgin münasibətlərinə rəğmən, Almaniya həmişə müttəfiqinin yanında qərar tutub. Aralıq və Egey dənizində Yunanıstanla münaqişə Avropa Birliyində müzakirəyə çıxarılan zaman rəsmi Ankaraya qarşı ciddi sanksiyaların tətbiq olunacağı gözlənilirdi. Lakin Almaniya yenə sözünü dedi. Beləliklə, qardaş ölkə əleyhinə Avropa Birliyində hansısa sanksiya qəbul olunmadı".

**N.Mirinin fikrincə, tərəflər arasındakı əməkdaşlıq gələcəkdə də davam edəcək:** "Almaniyada hətta Merkel hakimiyyətdən getsə belə, bu, qarşılıqlı əlaqələrə təsir etməyəcək. İki ölkə biri-birlərinə dəyər verir. Həm Türkiyə, həm də Almaniya anlayır ki, onların indiki vəziyyətdə biri-birləri ilə yaxınlaşmaları hər ikisi üçün qazancdır. Hər halda müasir dünyada qardaş ölkənin rolu getdikcə artır. Türkiyə artıq qlobal və regional proseslərə təsir gücünə malik ölkəyə çevrilib. Bunu Almaniya da bildiyinə görə, Türkiyəni özünə dost, strateji tərəfdaş kimi görür. Fikrimcə, Almaniyanın tutduğu mövqe ağıllı davranışdır. Düşünürəm ki, gələcəkdə əlaqələrə ziyan dəyməyəcək və qarşılıqlı münasibətlər müsbət məcrada inkişaf edəcək".

**Kənan Novruzov**



## İstanbulda yaşayış binası çökdü

**İstanbulda beşmərtəbəli yaşayış binası çöküb.**

Trend-in məlumatına görə, hadisə İstanbulun Zeytinburnu rayonunda baş verib.

Qeyd olunur ki, qəzalı vəziyyətdə olduğu üçün boşaldılmış bina çöküb.

Hadisə yerinə yanğınsöndürənlər və xilasedicilər cəlb edilib.

## Təkliflər hazırlanır

Avropa İttifaqı çevik hərbi qüvvələr yaradacaq



**Avropa Komissiyası dünyadakı böhranlı vəziyyətlərə qısa zamanda cavab vermək üçün Avropa İttifaqının (Aİ) çevik qüvvələrinin yaradılmasına dair təkliflər hazırlayacaq.**

"Report" xarici KİV-ə istinadən xəbər verir ki, bu barədə Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti ali nümayəndəsi Josep Borrell İttifaqın Müdafiə Nazirləri Şurasının iclasından sonra bildirib.

"Biz daha hazırlıqlı olmalıyıq. Böhran vəziyyətində ilkin addımlar ata biləcək çevik hərbi birləşmə yaratmaq fikrinə qayıtdıq. Üzv dövlətlər üçün müvafiq təklif hazırlayacağıq", - deyə diplomat qeyd edib.



## ABŞ Ukraynanın NATO üzvlüyünə dəstək verib

**ABŞ növbəti dəfə Ukraynaya NATO üzvlüyü tədbirlər planının (MAP) verilməsinə dəstək verib.**

"Report" yerli KİV-ə istinadən xəbər verir ki, bu barədə Ukrayna prezidenti ofisinin rəhbəri Andriy Yermak prezident Volodımir Zelenski ilə ABŞ dövlət katibi Antoni Blinken arasındakı görüşdən sonra bildirib.

"Bu gün Birləşmiş Ştatlar tərəfindən Ukraynanın MAP əldə etməsinə tam dəstək verilməsinin növbəti dəfə təsdiqini aldıq. Amma NATO iştirakçıları çox olduğuna görə, işlər davam edir. ABŞ isə bizim strateji tərəfdaşımız olduğunu, NATO üzvlüyümüzü dəstəklədiyini bir daha ortaya qoydu" - deyən Ukrayna prezidenti ofisinin rəhbəri iki ölkə arasındakı gündəmdə Qara dənizdəki təhlükəsizlik məsələlərinin mühüm yer tutduğunu dilə gətirib.

*Qeyd edək ki, Blinken - Zelenski görüşündən sonra ABŞ dövlət katibi Ukraynanın NATO üzvlüyü və bu ölkədə korrupsiyaya qarşı mübarizə ilə bağlı müzakirələr apardıqlarını bildirib.*

# Baydenin "soyqırımı" bəyanatı faktlarla yalanlandı

*"Çünki ABŞ prezidentinin dediyi onun və onu dəstəkləyən qüvvələrin mövqeyidir"*



"Mövzu çox sadədir, bəsitdir, hətta primitivdir. Lakin tiqranoidlər və onları dəstəkləyənlər, xüsusilə də Rusiya və Fransa mediası sakitləşmir". Bu sözləri siyasi analitik, jurnalist Elçin Alıoğlu deyib. O, məsələ barədə daha ətraflı "Şərq"ə danışıb:

"Baydenin "soyqırım" deməsi heç nəyi dəyişən deyil, dəyişə də bilməz. Çünki Baydenin dediyi onun və onu dəstəkləyən qüvvələrin mövqeyidir. Nə tarixlə əlaqəsi var, nə insan haqları ilə, nə də beynəlxalq hüquqla. ABŞ prezidentinin açıqlamasını "Türkiyəyə qarşı sanksiyalar olacaq, 1915-ci ildəki hadisələrə görə türklərdən təzminat ala biləcəyik" təki anlayan ermənilərə sevinməyi əsla məsləhət görmürəm.

Baydenin bəyanatının hüquqi nəticələri ola bilməz. Qondarma erməni soyqırımının hüquqi müstəvidə tanınması üçün ilkin və qaçılmaz mərhələ qismində ona BMT Baş Assambleyasının 1948-ci ilin dekabrın 9-da Parisdə qəbul etdiyi, 1951-ci ilin yanvarın 12-də qüvvəyə minmiş "Soyqırım cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında" konvensiyasının şərtlərinin tətbiq, habelə tövsif olunması gərəkdir.

Ermənilərin qondarma soyqırımın 1915-ci ildə törədildiyini iddia etmələrini, sözügedən konvensiyanın isə 1951-ci ildə qəbul olunduğunu nəzərə alsaq, hüquqi kazus göz qabağındadır. Belədə qanunun əksinə işləməsi prinsipi, yəni retroaktivliyi işə düşə bilərmi? Qanunun retroaktivliyi prinsipi sadə məsələdir: qanunun və ya digər hüquqi normanın onun qəbul edilərək qüvvəyə minməsindən əvvəl baş vermiş hadisələrə tətbiqi nəzərdə tutulur".

**E.Alıoğlu Baydenin açıqlamasının hüquqi əsası olmadığını faktlarla izah etdi:** "İstisna yəhudi soyqırımı Holokostla bağlıdır ki, səbəb bəsitdir: Nürnberq tribunalında Holokostun törədilməsi tam sübuta yetirilib. Ermənilərin "soyqırım" iddiaları ilə bağlı qanunlar deyir ki, soyqırım qismində dəyərləndirilən və ya iddia edilən istənilən olay məlum konvensiyanın qüvvəyə mindiyi vaxtadək, yəni 1951-ci ilədək törədilibsə, o, hüquqi baxımdan soyqırım sayılmır. Ermənilərin iddialarının hüquqi müstəvidə baxışa qəbul edilməsi üçün qondarma soyqırımın 1951-ci ilin yanvarın 12-dən sonra "törədilməsi" vacib şərtdir. Bu olmadığı üçün Co Baydenin bəyanatı, amerikalı senatorlarla konqresmenlərin qətnamələri və ya hər hansı başqa kağız parçası ABŞ-ı dövlət səviyyəsində erməni iddialarını tanımağa hüquqi prosedurlar çərçivəsində sövq edə bilməz".

**Kənan Novruzov**

## İctimai və dövlət maraqlarının müdafiəsi

Azərbaycan dövləti Vətən uğrunda döyüşənləri heç vaxt unutmayıb, unutmur da. İstər şəhid ailələri olsun, istərsə də müharibədə sağlamlığını itirənlər, müharibə veteranları və iştirakçıları, dövlət qayğısı onların hamısına istisnasız şamil edilir. Azərbaycan dövləti vətəndaşlarının sosial müdafiəsini daim həyata keçirir. Birinci Qarabağ savaşında şəhid olanların ailələrinə göstərilən dəstəyi, müharibə əlillərinin təminatının yaxşılaşmasına yönəlmiş layihələrin icrasını Azərbaycan xalqı hər zaman müşahidə edib.



# Vətən üçün canından keçənləri unutmaq olmaz

## *Böyük şirkətlər, holdinqlər, sahibkarlar, xeyriyyəçilər də fəal olmalıdır*

Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsindən sonra da şəhid ailələri, müharibə əlillərinin dövlət tərəfindən qayğı ilə əhatə olunması davam edir. Hətta ötən illərdəkindən daha yüksək səviyyədə. Buna isə əlbəttə ki, Azərbaycan dövlətinin son 10 illikdə əldə etdiyi iqtisadi inkişaf, dövlət büdcəsinə daxilolmaların artımı böyük imkanlar yaradır. Azərbaycan dövləti hər sahədə olduğu kimi şəhid ailələri və müharibə əlillərinin sosial təminatının davamlı şəkildə yaxşılaşdırılmasında bilavasitə vətəndaş və ictimai maraqlardan çıxış edir. Harda ki, vətəndaşa kömək lazımdır, dövlət dəstəyini o istiqamətə yönəldir. Bununla bağlı çoxsaylı misallar çəkmək olar. Sadəcə, Prezident İlham Əliyevin fərmanı ilə "Yaşat" Fondunun yaradılmasını xatırlatmaq, bizcə kifayət edər. "Yaşat" Fondu məhz 44 günlük Vətən müharibəsindən sonra yaradıldı. Lakin Fondun Əsasnaməsində xüsusi olaraq vurğulanır ki, Fond Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşmüş, şəhid, qazi olmuş bütün şəxslərə, onların ailələrinə yardım məqsədilə yaradılıb. Yəni burada istisnalar yoxdur. Nə zaman, harada döyüşməsindən asılı olmayaraq Vətən üçün canından keçmiş hər bir vətəndaş dövlət üçün əzizdir və qayğı ilə əhatə olunacaq.

### Şəhid və qazilərə qayğının bariz nümunəsini Prezident özü göstərir

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamların icra olunması nəticəsində indiyədək neçə şəhid ailəsi, müharibə əlili mənzillə, avtomobillə təmin edilib, tibbi müalicəyə ehtiyacı olanların müalicə olunması təmin edilib. Dövlət başçısının imzaladığı sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlilinin mənzil, fərdi evlə təmin ediləcəyi gözlənilir. Bu işlər davamlı olaraq aparılır. Prezident İlham Əliyev bir müddət əvvəl Bakının Ramana qəsəbəsindəki yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edərkən də bu məsələlərə toxunmuşdu. Xatırladaq ki, Ramana qəsəbəsində yeni yaşayış kompleksinin inşası ilə yanaşı, Şağan qəsəbəsindəki Reabilitasiya Mərkəzi də əsaslı təmir edilib. Mərasimdə çıxış edən cənab Prezident öz mövqeyini də, dövlətin mövqeyini də bir daha açıq şəkildə bildirmişdi:

- Bu gün Bakının Ramana qəsəbəsində şəhid ailələri və müharibə əlilləri üçün yeni yaşayış kompleksi istifadəyə verilir. Müharibə əlilləri ilə müxtəlif tədbirlərdə dəfələrlə görüşmüşəm. Bu günə qədər 9200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilib. Bu il isə 3 minə yaxın mənzil veriləcək. Beləliklə, həm Birinci, həm İkinci Qarabağ müharibəsində şəhid olmuş övladlarımızın Bakıda, Sumqayıtda, Abşeron rayonunda yaşayan ailələrinə bu ilin sonuna qədər mənzillər veriləcək. Yəni bu proqramı biz Bakı, Sumqayıt və Abşeron rayonunda bu ilin sonuna qədər tam icra edəcəyik. Digər

### Hər bir şəhid ailəsi və qazi dövlət, xalq üçün əzizdir, qayğı ilə əhatə olunmalıdır

ribədən cəmi üç ay yarım keçib, ancaq şəhid ailələri və müharibə əlilləri üçün artıq belə gözəl yaşayış kompleksi, şəhərcik inşa olunub, təqdim edilib. Bu gün, eyni zamanda, Şağan qəsəbəsində reabilitasiya mərkəzinin əsaslı təmirdən sonra açılışı da olub. Orada da minlərlə qazi hər il müalicə alacaq, reabilitasiyadan keçəcək, öz sağlamlığını bərpa edəcək. Eyni zamanda, müharibə dövründə əlini, qolunu itirmiş qazilərimiz üçün də ən müasir protezlər sifariş edilib. Mənə bu gün verilən məlumata görə, 300-dən çox qazimiz bu protezlərlə təmin ediləcək. Bizim ayaqlarını itirmiş qazilərimizin artıq bir neçəsi bu protezlərlə təmin edilib və onlar normal həyata dönə biliblər. Bu protezlər dünyanın aparıcı şirkətlərinin məhsuludur, ən müasir protezlərdir. Bu protezlər imkan verəcək ki, bizim qazilərimiz normal həyata qayıda bilsinlər. Prezident vurğulamışdı ki, dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir:

- Son 17 il ərzində şəhid ailələri şəhər və rayonlarımızda yaşayan şəhid ailələri üçün binaların, fərdi evlərin tikintisi davam etdirilir. Əminəm ki, yaxın gələcəkdə bu proqram tam icra olunacaq. Onu da bildirməliyəm ki, müharibə əlillərinə 7200-ə yaxın minik avtomaşını verilib. Mən bu rəqəmləri sadalamaqla dövlətin bu kateqoriyadan olan insanlara qayğısını bir daha dilə gətirmək istəyirəm. Bizim bu sahədəki siyasətimiz birmənalıdır. Bu siyasət mənəvi normalara əsaslanır və Vətən uğrunda canından keçmiş insanların yaxınları dövlət tərəfindən bundan sonra da qayğı ilə, diqqətlə əhatə olunacaqlar. Son illər müavinətlərin, pensiyaların məbləğinin artırılması göz qabağındadır. Azərbaycan dövləti bu siyasəti bundan sonra da davam etdirəcək.

### Dövlətin vətəndaşa qayğısı mənəvi dəyərlərə əsaslanır

Şəhid ailələrinə, qazilərə "YAŞAT" Fondunun dəstəyi də göz önündədir. Fond tərəfindən icra olunan işlər barədə ictimaiyyətə mütəmadi məlumatlar verilir. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin məlumatlarında bildirilir ki, mart ayının 15-20-si tarixlərində 428 şəhid və qazi ailəsinin məişət şəraiti yaxşılaşdırılıb. "YAŞAT" Fondu tərəfindən bu tarix ərzində 113 şəhid ailəsi və qazinin tibb xərcləri ödənilib. Bundan əlavə 182 şəhid ailəsinin borc öhdəlikləri qarşılanıb. Ehtiyacların ödənməsi sistemli və planlı şəkildə aparılır. "YAŞAT" Fondunun üzvləri şəhid ailələrini, qaziləri ziyarət edir, problemləri yerində öyrənməyə çalışırlar. Fond tərəfindən 2700-dən artıq qazi ilə müxtəlif yerlərdə görüşülüb, 300-dən artıq yataq xəstəsi olan qazinin birbaşa mənzilində görüş keçirilib.

### Bəs vətəndaş nə etməlidir?

Deyilənlər, yazılanlar Azərbaycan dövlətinin payına düşənlərdir. Dövlət sahib olduğu imkanlar çərçivəsində ehtiyaclı ailələrin, insanların yanında dayanır, onlara dəstək olur. Bəs biz vətəndaş olaraq nə edirik? Və ya nə edə bilərik? Bunu mütləq vurğulamalıyıq ki, Azərbaycan xalqı milli-mənəvi dəyərlərinə, ənənələrinə hər zaman sadiq qalıb. 44 günlük Vətən müharibəsi günlərində yaşa görə aldığı təqaüdünü əsgərlərimizə yollayanlar az olmadı. Ordumuz tam təmin olunduğu halda, yenə də "onlar bizim balalarımızdır, Vətəni qoruyurlar, torpaqlarımızı azad edirlər" düşüncəsiylə əsgər və zabitlərə sovqatlar göndərən, arxa cəbhədə maddi sıxıntı çəkən əsgər ailələrinə yardım edənlər bu millətin təmsilçiləri idi. Xalq ümumi şəkildə Vətən üçün heç vaxt varını əsirgəmir. Amma söhbət geniş maddi imkanlara sahib olanlardan gedir. Bəzən efirlərdə kimlərinsə fərdi qaydada şəhid ailəsinə, yaxud yaralı əsgərə maddi yardım etdiyini, mənzil, hətta avtomobil hədiyyə etdiyini görürük. Lakin belə xeyriyyəçilik çox məhdud çərçivədə olur. Halbuki, ölkədə geniş iqtisadi imkanlara malik holdinqlər, şirkətlər, müəssisələr var ki, onlar konkret sayda şəhid ailəsi və qazini himayə altına ala bilər. Hər bir işi dövlətə yükləmək, dövlətdən ummaq da olmaz. İllərlə iqtisadi sahədə gəlir əldə etmiş şirkətlər və onların rəhbərləri, sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar dövlətə dəstək durmalı deyilmi?

**İqtisadçı Natiq Cəfərli "Şərq"ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda xeyriyyəçiliyin bir mərkəzdən idarə olunmasına, mərkəzləşmiş fəaliyyətə üstünlük verilir:**

- Hamımız şahid olduq ki, iri müəssisələr, holdinqlər, şirkətlər, banklar... "YAŞAT" Fonduna, həmçinin də "Qarabağ Dirçəliş Fondu"na vəsait köçürürdü. İanələr edilirdi. Proses əlbəttə davamlı olacaq. Bu onu göstərir ki, bizdə xeyriyyəçiliyin bir mərkəzdən idarə olunmasına, mərkəzləşmiş və koordinasiyalı fəaliyyətə üstünlük verilir. Bunun müsbət tərəfləri var.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Lakin belə şəraitdə alternativ xeyriyyə fondlarının olması mümkün görünmür. Dünyada xeyriyyəçiliklə bağlı müxtəlif təcrübələr var. Elə ölkələr var ki, orada xeyriyyə fondlarına vəsait qoyan şirkətlərə, sahibkarlara vergi güzəştləri tətbiq edilir. Belədə daha çox şirkət, müəssisə və daha çox sahibkar fondlara qoşulur, ianələr edirlər. Bizdə bununla bağlı problem həm də ona görə yaranır ki, Azərbaycanda rəsmi milyonçu yoxdur. Açıq desək, böyük həcmdə ianələr edən şirkətin və ya konkret şəxsin maliyyə sənədləri yoxlansa, çoxunun vergidən yayındığı, qeyri-şəffaf mühasibatlığa malik olduğu, gəlirlərin gizlədilməsi faktları üzə çıxacaq. Ona görə də hazırkı vəziyyətdə mərkəzləşmiş fəaliyyət daha yaxşıdır. Xarici ölkələrdə xeyriyyəçilərin müsbət imici formalaşır, "piar"ları qururlur. Məsələn, istehsalçı şirkətin xeyriyyə işləri ilə məşğul olmasının "piar"ı təşkil edilir, bunu öyrənən vətəndaş o şirkətin məhsulunu almağa çalışır ki, onun da bu xeyriyyə kampaniyasına bir dəstəyi olsun. Az və ya çox miqdarda dəstək, fərq etmir. Vətəndaş özünü ehtiyaclı insanlara yardım edənlər sırasında görür. Vətəndaş o şirkətin məhsulunu almaqla xeyriyyə fonduna vəsait toplanması aksiyasında iştirak edir. Bu, vətəndaş fəallığını da artırır, dövlətin yükünü də azaldır. Deyə bilmərik ki, bizdə xeyriyyəçilər yoxdur, ya da azdır. Bizdə də belə insanlar var və ehtiyaclı insanlara, o cümlədən şəhid ailələrinə, qazilərə təmənnasız yardım edirlər. Sadəcə, bu proses kampaniya şəklini ala bilmir. Daha çox fərdi qaydada həyata keçirilir.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Qazilərin intiharının qarşısını almaq olar

## Ən yaxşı yol onları biri-biri ilə görüşdürməkdir



Vətən müharibəsi iştirakçısı leytenant Nəbizadə Rüfət Ağayar oğlu intihar edib. Bu barədə hərbçimizin atası Ağayar Nəbizadə məlumat verib. Onun sözlərinə görə, hadisə mayın 4-də Bakının Novxanı kəndi ərazisində qeydə alınıb. Leytenant Nəbizadənin intiharına psixoloji vəziyyəti səbəb olub: "Oğlum müharibə vaxtı iki dəfə kantuziya almışdı. Amma bunu qeydiyyata saldırmamışdı.

Çünki arxaya qayıtmağı özünə sığışdırmırdı. Müharibədən sonra isə psixoloji problemləri üzə çıxdı. Aydın məsələdir ki, müharibədə gördükləri, yanında dostlarının şəhid olması ona çox pis təsir etmişdi.

Psixoloji problemlərinə görə bir aydan çox Daxili Qoşunların Hospitalında yatdı, bir neçə psixoloq yanına apardıq. Amma həkimlər deyirdi ki, Rüfət bütün olanları bilinc altına yeridib, belə nevroloji problemi yoxdur.

Dünən günortadan sonra əlaqə saxlaya bilmədik. Axşam xəbər gəldi ki, belə bir hadisə baş verib".

İntihar xəbərləri onsuz da üzüntülüdür, fəlakətli həddə ağrılıdır, üstəlik, intihar edən qalib ordumuzun hərbçisidirsə, adamın canı ikiqat sıxılır. Postmüharibə dönəmində mənəvi böhran, depressiya, stress bu və ya digər səviyyələrdə yaşanır. Əsgərlərin aldığı xəsarətlər, baş-beyin travmaları, dözülməz ağrılar bəzən intihara gətirib çıxarır. Üstəlik, pandemiya şəraitində yaşadığımızı da nəzərə alsaq, vəziyyət olduqca ciddidir. Bəs, bu sahədə nə kimi tədbirlər görülməlidir ki, qəhrəman oğullarımız canlarına qıymasınlar?

Bütün rayon və qəsəbələrdə qazilər parkı, istirahət mərkəzləri yaradılmalıdır. Özü də dərhal və gecikdirilmədən.

Baş verənləri "Şərq"ə dəyərləndirən Qarabağ qazisi, hərbi jurnalist Rey Kərimoğlu təəssüflə qeyd edib ki, belə hallar var, yenə də olacaq: "Ən vacibi odur ki, Vətən müharibəsində iştirak edənlərə diqqət və qayğı göstərilsin, onlarla təmas qurulsun. Müharibənin odu və alovundan keçmiş qazilərin, veteranların ən düzgün xilas yolu onların bir təşkilatla cəmlənməsi, tez-tez görüşmələridir. Çünki biri-birlərindən təskinlik alırlar. Lakin nə qədər desək də, bunlara qulaq asan yoxdur. Nə "YAŞAT" Fondu, nə rayon icra hakimiyyətləri problemi həll edəcək".

**R.Kərimoğlu vurğulayıb ki, müəyyən həkim qrupu, psixoloqlar və mütəxəssislər dəvət edilsə də, onların heç biri problemi həll edə bilməyəcək:** "Yeganə çıxış yolu müharibə iştirakçılarının bir-biri ilə əlaqələrinin yaradılması, təmasların təşkil olunmasıdır. Bütün rayon və qəsəbələrdə qazilər parkı, istirahət mərkəzləri yaradılmalıdır. Özü də dərhal və gecikdirilmədən. Həmin parklar və istirahat mərkəzləri də müharibə iştirakçılarının idarəçiliyinə verilməlidir. Hamısı bir yerə toplaşıb, dərdləşməlidirlər. Vətən müharibəsi iştirakçılarımızın böyük əksəriyyəti özünə qapanıb. Belə olmasaydı, intihar etməzdilər. Özünə qapanmamanın da tək yolu onların ictimailəşmələri, bir yerdə olmaqlarıdır.

Aparılan işlər düzgün həyata keçirilmir. Dövlətin vəsaiti var, ölkə başçısı müxtəlif qərar və sərəncamlar verir. Amma bu sahədə fəaliyyət göstərənlərin işləri yönəltməsi düzgün deyil.

Vahid dövlət komitəsi yaradılmalıdır - Şəhid ailələri, Qarabağ əlilləri, veteranlar və hərbçilərlə iş üzrə Dövlət Komitəsi. Həmin qurumda bütün işlər nizamlanmalıdır. Bu gün qazilərimiz və şəhid ailələrinin problemi olanda bilmirlər hara getsinlər, qapılarda qalırlar. Prezidentə düzgün informasiya və hesabatlar verilmir. Ona görə də bu işləri nizamlamaq üçün kifayət qədər məlumatı olanları cəlb etmək lazımdır".

**Yeganə Bayramova**

## "Starlink"in 1300 peyki artıq orbitdədir

"Astronomlar bildirirlər ki, peyklərin çoxluğu və xüsusilə də onların parlaqlığı elmi tədqiqatlara, elmin inkişafına mane olur"




**"Multimedia" İnformasiya Sistemləri Texnologiyaları Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz orbitə buraxılan peyklərlə bağlı "Facebook" səhifəsində son proseslərə toxunub.**

O vurğulayıb ki, astronomlar səmanın çirklənməsi, qlobal şirkətlər isə orbitdə yer qalmadığı ilə bağlı şikayətlərə başlayıblar: "Hədəfdə İlon Maskdır. Məlum olduğu kimi, onun "Speys-X" şirkətinin "Starlik" peykləri, o cümlədən də OnVeb (OneWeb) və digər şirkətlərin minlərlə peyki artıq göydədir. Bu peyklər dünyanın istənilən yerinə internet xidməti təqdim edəcək. Bu peykləri gecə vaxtı adi gözlə də müşahidə etmək olur. Yeri gəlmişkən, artıq Qazaxıstan və Ukrayna kimi ölkələr də adı çəkilən şirkətlərlə peyk interneti əldə etmək üçün müqavilələr imzalayıblar. İlon Maskdan yalnız göyləri zəbt etmək deyil, həm də kosmosu zibilləməklə bağlı şikayətlər var. Şirkətlər Maskı kosmosu inhisara almaqda ittiham edirlər".

**O.Gündüz qeyd edir ki, onlar "Speys-X" şirkətinin üstün texnoloji mövqedən istifadə etməsi və tələm-tələsik minlərlə peyki orbitə qaldırması səbəbindən kosmosda digər şirkətlər üçün məhdud sayda imkanların qaldığını, digər peyklərin siqnallarının bloklandığını bildirirlər:** "Təkcə "Starlink"in 1300 peyki artıq orbitdədir. Yaxın zamanlarda isə bunun 13 000 olacağı planlanıb. Astronomlar bildirirlər ki, peyklərin çoxluğu və xüsusilə də onların parlaqlığı elmi tədqiqatlara, elmin inkişafına mane olur. Bununla bağlı onlar BMT-yə şikayət də ünvanlayıblar. Onlar peyklərin qadağan olunmasını deyil, hamı üçün məcburi olan yeni tənzimləmələrin qəbul edilməsini, peyklərin parlaqlığının nizamlanmasını tələb edirlər".

**Aynurə Pənahqızı**

## "Azərbaycan KTMT və Avrasiya İttifaqına üzv olmamalıdır"

"Çünki üzv ölkələr arasında münaqişənin alovlandırılması məhz Moskvadan idarə edilir"



**"Tacikistan və Qırğızıstan arasında müharibənin başlanması Rusiyanın KTMT qurumunun fəaliyyətini şübhə altına qoyur".**

Bu sözləri MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə deyib. O, "Sherg.az"a açıqlamasında mövcud durumu belə qiymətləndirdi:

" Hər iki ölkə həmin qurumun üzvüdür və demək olar ki, Rusiyanın orbitindədir. Hər iki ölkədə Rusiyanın mövqeləri güclüdür. KTMT üzv olan ölkələrin bir üzvü xarici təcavüzə məruz qaldıqda digərləri müdaxilə etməlidir. Tacikistan və Qırğızıstan birbirilərinə qarşı müharibə aparır. Bu, təşkilat daxilində birliyin olmamasını və onun ciddi bir qurum olmadığını göstərdi. Rusiya belə bir boş təşkilata Azərbaycanı üzv etməyə çalışır. Göründüyü kimi, Rusiyanın regional layihələrində yer alan ölkələr bu və ya digər şəkildə münaqişədədirlər. Azərbaycan KTMT və Avrasiya ittifaqına üzv olmamalıdır. Çünki üzv ölkələr arasında münaqişənin alovlandırılması məhz Moskvadan idarə edilir. Son aylarda Türkiyənin Mərkəzi Asiyaya istiqamətlənməsi və Çinin burada təsirini artırması Rusiyanin regionu qarışdırmasına gətirib çıxarır".

**Kənan**

# 3 erməni əsiri qaytarmaq humanist addımdır

## Ermənistan da adekvat davranış sergiləməlidir



"44 günlük müharibədə qələbə qazanaraq öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edən Azərbaycan yaratdığı yeni geostrateji reallıqlar fonunda regionda dayanıqlı sülh və təhlükəsizliyin, etibarlı əməkdaşlıq mühitinin formalaşması tərəfdarıdır.

Buna görə də həm öz milli maraqlarına, həm beynəlxalq hüquq normalarına, həm də humanizm prinsiplərinə uyğun addımlar atır. Azərbaycanın 3 erməni əsiri qaytarması da bu kontekstdə növbəti humanist addımdır". **Bu fikirləri "Şərq"ə açıqlamasında politoloq Nurlan Qələndərli deyib. Onun sözlərinə görə, Azərbaycanın bu mühüm siyasi jestinə uyğun olaraq Ermənistan adekvat davranış sərgiləməlidir:** "Biz məğlub ölkənin Üçtərəfli bəyanatın icrası ilə əlaqədar müəyyən əngəllər və problemlər yaratmağa yönəlik cəhdlərini görürük. Xüsusilə də, minalanmış ərazilərin xəritələrinin verilməməsi Ermənistanın beynəlxalq hüquq normalarını kobud surətdə pozması, humanizm prinsiplərinə zidd davranışı və aşkar müharibə cinayətidir. Digər tərəfdən Ermənistanın Birinci Qarabağ müharibəsində itkin düşmüş 4 min azərbaycanlı barədə məlumat verməkdən yayınması da faktdır. Ermənistanın yeganə şansı - çıxış yolu Üçtərəfli bəyanatın tələblərini tam və qeyd-şərtsiz yerinə yetirmək, revanşizm siyasi ritorikasından əl çəkmək və yeni reallıqlara uyğun davranış sərgiləməkdir". Avropa Parlamentinin 121 üzvünün Avropa Komissiyasının sədri və Avropa İttifaqı sədrinə müraciət edərək Azərbaycandan "erməni əsirlər"in qaytarılmasını tələb etməyə çağırması məsələsinə gəlincə, politoloq qeyd edib ki, bu, siyasi səmimiyyətsizlik və riyakarlıq nümunəsidir: "Nəzərə alınmalıdır ki, Avropa İttifaqı Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş və beynəlxalq təşkilatların 1993-1994-cü illərdə əksəriyyətinin sağ olduğunu təsdiqlədiyi 4 mindən artıq azərbaycanlının taleyinə dair susqunluq nümayiş etdirir. Beləliklə, Avropa Parlamentinin üzvlərinin bu müraciəti həm də ikili standart göstəricisidir".

**Aynurə Pənahqızı**

# Təhsilin keyfiyyəti getdikcə artacaq



## *Çünki işini bilməyən məktəb direktorları yola salınır*

Təhsil nazirinin müvafiq əmrinə əsasən, 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzində araşdırma aparılıb. Təhsil Nazirliyindən verilən məlumata görə, araşdırma zamanı bir sıra ciddi nöqsanlar aşkar edilib, yol verdiyi nöqsanlara görə 13 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzinin rəisi Məhərrəmov Raqub Ərşad oğlu işdən azad edilib.

Salyan Rayon Təhsil Şöbəsinin müdiri Piriyev Xudaverdi Əliyusif oğluna əmək funksiyalarını keyfiyyətsiz yerinə yetirdiyinə, əmək müqaviləsi ilə müəyyənləşdirilmiş vəzifələrin icrasına səhlənkar yanaşdığına və rayonun ümumi təhsil müəssisələrinin işinə zəif nəzarət etdiyinə görə töhmət verilib.

Həmçinin, rəhbərlik və nəzarətdə ciddi nöqsanlara yol verdiyinə, vəzifə səlahiyyətlərindən sui-istifadə etdiyinə, əmək müqaviləsi üzrə öhdəlikləri və vəzifə funksiyalarını yerinə yetirmədiyinə görə Salyan rayonu Qarabağlı kənd 2 nömrəli tam orta məktəbin direktoru Bayramov Emin Knyaz oğlu, Yeni Uluxanlı kənd tam orta məktəbinin direktor səlahiyyətlərini icra edən Qəmbərov Lətif İsbəndiyar oğlu işdən azad edilib. Əmək funksiyalarını keyfiyyətsiz yerinə yetirdiklərinə, əmək müqavilələri ilə müəyyənləşdirilmiş vəzifələrin icrasına səhlənkar yanaşdıqlarına görə Salyan rayonu Çuxanlı kənd tam orta məktəbinin direktoru Heybətov Firdovsi Əlihüseyn oğluna, I Varlı kənd tam orta məktəbinin direktor əvəzi Nəzərov Bəylər Möhtəbər oğluna və Cəbrayıl rayonu Əmirvarlı kənd tam orta məktəbinin direktoru Məmmədova Lətafət Aşir qızına sonuncu xəbərdarlıqla şiddətli töhmət verilib.

"Vəzifə öhdəliklərini yerinə yetirə bilməyən şəxslərlə əmək müqaviləsinə xitam veriləcək"

Eyni zamanda əmək funksiyalarını keyfiyyətsiz yerinə yetirmiş, əmək müqavilələri ilə müəyyənləşdirilmiş vəzifələrin icrasına səhlənkar yanaşmış 13 saylı ƏMHM-nin məsul əməkdaşları barəsində intizam tənbehi tətbiq edilib.

Həmçinin Masallı Rayon Təhsil Şöbəsi tərəfindən aparılmış yoxlamaların nəticəsinə əsasən, Təhsil Nazirliyinin müvafiq əmri ilə işlərində yol verdiyi nöqsanlara görə Masallı şəhər 1 nömrəli tam orta məktəbin direktoru Hüseynova Mirxanım Mirhəbib qızı və Masallı şəhər 6 nömrəli tam orta məktəbin direktoru Nəzərov Elman Eldar oğlu tutduqları vəzifədən azad edilib. Aidiyyəti struktur bölmələr araşdırmaları davam etdirir və müvafiq tədbirlər görülür.

**Təhsil eksperti Kamran Əsədov sözügedən sahədəki kadr islahatları barədə "Şərq"ə danışdı. O, aparılan islahatları yüksək qiymətləndirir:** "İndi əvvəlki illərlə müqayisədə əmək funksiyasını yerinə yetirə bilməyənlərin vəzifədən uzaqlaşdırılması daha intensiv xarakter alıb. Bu, təhsilin keyfiyyətinin artırılması və yalnız bu sahəyə yararlı olan şəxslərlə əmək münasibətlərinin davam etdirilməsi ilə bağlıdır. Əlbəttə, müsbət tendensiyadır. Çünki respublikada 4447 orta təhsil müəssisəsi var. Onların bəziləri funksiyalarını uğurla yerinə yetirə bilmir, hətta vəzifə səlahiyyətlərindən sui-istifadə edirlər. Çox qısa müddətdə bir çox məktəb direktorlarının vəzifələrindən kənarlaşdırılması nazirliyin bu istiqamətdəki qəti mövqeyindən xəbər verir. Deməli, bundan sonra da vəzifə öhdəliklərini yerinə yetirə bilməyən şəxslərlə əmək müqaviləsinə xitam veriləcək. Bu tendensiyanı yüksək qiymətləndirirəm. Çünki təhsil strateji sahədir. Təhsil alanlar ölkənin gələcəyini müəyyənləşdirirlər. Fikrimcə, islahatlar davam edəcək".

**Kənan Novruzov**

## Qanuna dəyişiklik təqdir edildi

"Vətən müharibəsi qəhrəmanlarının mənzilləri tarixi abidə hesab olunacaq"



**"Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" qanuna dəyişiklik edilir.**

Dəyişikliklə, Azərbaycan Respublikasının Vətən müharibəsi qəhrəmanlarının, Azərbaycanın Milli Qəhrəmanlarının, Sovet İttifaqı Qəhrəmanlarının Azərbaycan Respublikasının Vətən müharibəsi qəhrəmanlarının həyatı ilə bağlı mənzillər, xatirə yerləri, sənədlər və əşyalar tarixi abidə hesab olunacaq.

**Təklifə münasibət bildirən Qarabağ qazisi, "Qazilər.az" saytının baş redaktoru Rey Kərimoğlu "Şərq"ə açıqlamasında bildirib ki, Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi çox mühümdür.** O qeyd edib ki, Vətən müharibəsində iştirak edənlərlə, qazilərlə, şəhidlərlə bağlı atılan hər bir müsbət addım alqışa layiqdir: "Əlbəttə, mən də öz növbəmdə bunu çox təqdirələyiq hesab edirəm. Fikrimcə, Vətən müharibəsi qəhrəmanlarının mənzilləri tarixi abidə hesab olunmalıdır. Əlbəttə, onların yaşadıqları evlər vətəndaşlarımız tərəfindən ziyarət olunmalı, onların qəhrəmanlıqları unudulmamalıdır. Necə ki, Azərbaycanın tanınmış şəxsləri Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin ev muzeyi var, onlar da o şəkildə olsa yaxşı olar".

*R.Kərimoğlu onu da əlavə edib ki, şəhidlər haqqında qanunda dəyişiklik edilməlidir:* "Çünki orada çox biabırçı bəndlər var. Həmin bəndlərin yenilənməsinə çox ehtiyac var. Təsəvvürünüzə gətirin ki, şəhidin adına məktəb vermək olmaz. Gərək ikinci medalı və ordeni olsun. Təbii ki, bu qanun dəyişməlidir".

**Aynurə Pənahqızı**

# Azərbaycanlı London meri vəzifəsinə namizəddir

*Xaricdəki soydaşlarımızın siyasi fəallıqlarını artırması yerli cəmiyyətlərə inteqrasiya baxımından müsbət nəticə verəcək*

Londonda keçirilən mer seçkilərində azərbaycanlı Kamran Balayev də iştirak edir. Həmyerlimiz London meri vəzifəsinə namizəddir. Onun namizədliyi 2017-ci ildə yaradılmış "Renew" mərkəzçi partiyası tərəfindən irəli sürülüb. K.Balayevin ən əsas rəqibləri arasında hazırkı mer, Leyboristlər Partiyasının namizədi Sadıq Xan və Mühafizəkarlar Partiyasının namizədi Shaun Bailey də var.

Kamran Balayev Kembric Universitetinin və London İqtisadiyyat və Siyasi Elmlər Məktəbinin (LSE) məzunudur. O, BMT-nin bəyannamələri çərçivəsində insan haqlarının qorunması məsələləri ilə məşğul olan "Sərhədsiz hüquqşünaslar" təşkilatının qurucusudur. Xatırladaq ki, Londonda mer seçkiləri ötən il keçirilməli olsa da, koronavirus pandemiyası səbəbindən təxirə salınıb. Hazırda seçicilər poçt yolu ilə və seçki məntəqələrinə getməklə səsvermə hüququndan istifadə edə bilirlər.

İctimaiyyət nümayəndələrinin fikrincə, seçkinin nəticəsinin nə olmasından asılı olmayaraq, xarici ölkələrdə həmvətənlərimizin, ələlxüsus gənclərimizin bu cür siyasi-ictimai fəaliyyət sərgiləməsi, yaşadıqları ölkənin proseslərində aktiv olması olduqca mühüm və zəruridir. Soydaşlarımızın müxtəlif xarici ölkələrdə mühüm vəzifələrdə təmsilçiliyi ilk növbədə Azərbaycanın maraqlarının və həqiqətlərinin dünyada daha yaxşı tanıdılmasına imkan yaradır.




**"Diaspor Fəaliyyətinə Jurnalistlərin Dəstəyi" İctimai Birliyinin sədri Fuad Hüseynzadə "Şərq"ə bildirib ki, xaricdəki həmvətənlərimizin seçkili orqanlarda təmsil olunmaları, yaşadıqları ölkələrin rəsmi qurumlarında məmur olaraq çalışmaları təqdir olunası haldır.** Birlik sədrinin sözlərinə görə, son zamanlar müxtəlif ölkələrdə keçirilən meriya, parlament və bələdiyyə seçkilərində azərbaycanlıların iştirakı çox müsbət haldır: "Bu istiqamətdə fəaliyyətin daha da gücləndirilməsinə ehtiyac var. Xaricdəki soydaşlarımızın siyasi fəallıqlarını artırması yerli cəmiyyətlərə inteqrasiya baxımından müsbət nəticə verəcək. Artıq istər fərdi, istərsə də ümumi ictimai-siyasi fəaliyyətlər yeni dövrün tələblərinə uyğun qurulmalıdır. Bu baxımdan dünya azərbaycanlılarının üzərinə böyük məsuliyyət düşür. Xüsusən, xaricdə yaşayan soydaşlarımız, Azərbaycan diasporunun inkişafında və xaricdə yaşayan azərbaycanlıların, xüsusilə diaspor nümayəndələrinin Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında çevik addımlar atmalıdırlar".

**F.Hüseynzadə bəyan edib ki, Prezident İlham Əliyev Dünya azərbaycanlılarının III qurultayındakı çıxışında bu istiqamətdə xaricdəki soydaşlarımıza öz tövsiyələrini verib:** "Dövlət başçısı bildirib ki, xaricdə fəaliyyət göstərən diaspor təşkilatlarımız o ölkələrin daxili siyasətinin amilinə çevrilməlidir. Artıq bunun vaxtı gəlib çatıb: "Həm ölkəmizin inkişafı, həm diaspor təşkilatlarımızın güclənməsi qarşımızda indi belə imkanlar açır. Soydaşlarımız - azərbaycanlılar yaşadıqları ölkələrdə dövlət, hökumət qurumlarında təmsil olunmalıdırlar. Onların sayı da bəzi hallarda buna imkan verir. Qanunvericilik orqanlarında təmsil olunmalıdırlar. Bunu etmək üçün azərbaycanlılar arasında qarşılıqlı dəstək və birlik daha da güclü olmalıdır". Biz hər zaman vurğulayırıq ki, diasporumuz öz strategiyasını həyata keçirmək üçün taktiki yollarını zamana görə dəyişməlidir. Yəni diaspor siyasətində yeni trendlərə üstünlük verilməlidir".

**İsmayıl Qocayev**

# Xilas ola bilərdi...

## Aslan Hüseynovun avtomobilinin təhlükəsizlik yastıqları açılmayıb

Müğənni Aslan Hüseynovun qəzadan sonra avtomobilinin görüntüləri müzakirələrə səbəb olub. Onun idarə etdiyi "BMW' markalı avtomobilin təhlükəsizlik yastıqları açılmayıb.



"BMW"nin Azərbaycanda rəsmi idxalçısı olan şirkət üzərinə düşən məsuliyyətdən yayınır”

Nəzərə alsaq ki, ”BMW' dünyada ən təhlükəsiz avtomobillərindən biri hesab olunur. Qəza zamanı sözügedən avtomobillərdə təhlükəsizlik yastıqlarının açılmaması mümkün deyil.

”BMW'nin Azərbaycanda rəsmi və eksklüziv idxalçısı olan ”İmprotex Motors” şirkətinin direktor müavini Ziya Mahmudov baş verən hadisə ilə bağlı açıqlama verib: ”Burada əsas məqam avtomobilin hadisədən öncə hansı vəziyyətdə olmasıdır. Görünür ki, yeni avtomobil deyil. Yeni istehsal olunan avtomobillərdə belə hadisələrin olması ehtimalı azdır. Təəssüf ki, Azərbaycana ABŞ və digər ölkələrdən yüzlərlə qəzaya düşmüş avtomobillər gətirilir. Bu avtomobillərin sözügedən ölkələrdə istifadəsi qadağandır. Lakin Azərbaycana gətirilir, dövlət nömrə nişanı verilir və istifadə olunur. Nəticədə belə xoşagəlməz hadisələr yaşanır”.

**Nəqliyyat üzrə ekspert İlqar Hüseynli ”Şərq”ə bildirib ki, avtomobillərin konkret olaraq marka modellərinə görə ölkəmizə idxalına qadağaların olması üçün göstəriş yoxdur:** ”Sadəcə olaraq Azərbaycanda avtomobillərə buraxılış ilinə dair qadağalar qoyulur. Məsələn, bu qadağa istehsal tarixi 2003-cü ilə qədər olan maşınlara tətbiq olundu. Gömrük orqanları tərəfindən avtomobil alqı-satqısına nəzarət zamanı da məhz buraxılış ilinə dair qadağalara diqqət yetirilir. Amma Amerikadan və digər ölkələrdən avtomobillərin gətirilməsinə aid hansısa məhdudiyyətin qoyulması düzgün deyil. Çünki Amerikadan ölkəmizə avtomobil gətirilirsə, təbii ki, bu, qanunla tənzimlənir. Amerikadakı maşınlar ərzaq məhsulu deyil ki, kütləvi şəkildə paketlərə yığılıb gətirilsin. Hər bir maşın ABŞ-dan xüsusi texniki göstəricilərə müvafiq olaraq idxal olunur. Bu barədə alıcılara da məlumat verilir”.

**Ekspert qeyd edib ki, ”BMW”nin Azərbaycanda rəsmi idxalçısı olan şirkət üzərinə düşən məsuliyyətdən yayınmaq məqsədilə belə açıqlama verir:** ”ABŞ-da həmin nəqliyyatın texniki baxışdan keçirilməsi zamanı hansısa detallarda nasazlıq olduğuna dair qeydlərin aparılmaması mümkün deyil. Bütün nəqliyyat vasitələri texniki baxışdan tam ciddi şəkildə keçir və yastığın özündə belə nasazlıq aşkarlandıqda qeyd olunur. Həmçinin sürücülərin də öz marağında olmalıdır ki, maşınında qoruyucu yastıqlar işləyir, ya yox. Burada hansısa dövlətin edə biləcəyi nəsə yoxdur. Sadəcə olaraq ”BMW”ni ölkəmizə idxal edən şirkət məsələdən yayınmaq üçün belə versiyanı irəli sürüb”.

**Yeganə Bayramova**



# Mirşahin karantin rejimi tələb edir

## Nadir Qafarzadə: “Müəllim, bu xalq yazıqdır. Məncə, yetər artıq”

**”Real” TV-nin baş direktroru, Əməkdar jurnalist Mirşahin Ağayev Operativ Qərargahdan tam qapanma olmasını tələb edib. Həmkarımızın açıqlaması sosial şəbəkələrdə müzakirə doğurub. Əksəriyyət karanatin rejiminin sərtləşdirilməsinin qəti əleyhinə olduğunu söyləyib.**

”Şərq” xəbər verir ki, müğənni Nadir Qafarzadə də jurnalistin açıqlamasına münasibət bildirib. Sənətçi instaqram hesabında bunları yazıb: ”Mirşahin müəllim, bu xalq yazıqdır. Məncə, yetər artıq. Bir gün gözümüzü açıb görəcəyik ki, ölkədə adam qalmayıb, hamı xaricə köçüb. Axı biz qoyun deyilik. İnsanların insan kimi yaşamağa haqqı var. Allahlıq Allaha məxsusdur. Sizə hörmətimiz var”.

*Xatırladaq ki, dünən Operativ Qərargahın brifinqi keçirilib. Bildirilib ki, yeganə məhdudiyyət ictimai nəqliyyatda olacaq.*

**Samirə Ərəblinski**

# Namiq Mənanın cibindən dollar çıxdı

## Səməd Səmədov isə üstündə 200 manat gəzdirir





**”ARB” TV-nin ”Həmin Zaur” verilişinin əməkdaşları tanınmışlar arasında sorğu keçiriblər. Onlardan ciblərində nə qədər pul olduğunu soruşublar.**

*”Şərq” xəbər verir ki, sorğuda müğənnilər Şəbnəm Tovuzlu, Nazənin Salayeva, Səməd Səmədov, Səyyad Əlizadə, meyxanaçılar Namiq Məna, İntiqam Rüstəmov da iştirak edib.*

S.Səmədov cibində 200 AZN, S.Əlizadə 200-300 manat pulun olduğunu söyləyib. N.Salayeva üzərində çox pul olanda çox xərclədiyini bildirib. Eyni zamanda yanında 500 AZN-in olduğunu xüsusi vurğulayıb. Ş.Tovuzlu növbəti dəfə səhvə yol verib. O danışarkən ”Pul qabım çantamdadır” deyib. Müğənninin bu ifadəsi sosial şəbəkələrdə gülüş doğurub. Şəbnəm kartları evdə olsa da, yanında 200 manat pul olduğunu söyləyib.

N.Məna cibindəki məbləği tam açıqlamasa da, pulun dollar olduğu açıq görünüb. Hətta meyxanaçının cibindəki pul müxbiri təəccübləndirəcək qədər çox olub.

**Samirə**

# Həcinin üzü göstərilmədi

## Mətanət Əliverdiyeva Şəbnəm Tovuzlunu müdafiə etdi



**Aparıcı Mətanət Əliverdiyeva ”6/8” axşam şousunda günlərdir müzakirə olunan ”Şəbnəm-Vəfa” qalmaqalına münasibət bildirib.**

”Şərq” xəbər verir ki, aparıcı məsələ haqda bunları söyləyib: ”Vəfa Şərifovanı yaxşı tanımıram. Şəbnəmlə illərdir tanışıq. Hətta onun oğlu Əlinin kiçik toyunda da iştirak etmişəm. Şəbnəmin həyat yoldaşını, qayınanasını, bütün qohum-əqrəbasını gördüm. Azər Axşamla birgə dəvət edilmişdik”.

Həmçinin verilişdə sözügedən toydan fotolar da yayımlanıb. Amma Həcinin üzü göstərilməyib.

**Samirə**

# Pulu olanlar dalaşır




"Mən jurnalistləri qınamıram. Onlara da reytinq lazımdır. Tanınmış insanlar telefon qarşısında biri-birlərini qırırsa, ayıblarını açırlarsa, jurnalist nə etsin?".

*”Şərq” xəbər verir ki, bu sözləri ”Xəbər-ətər” verilişində Əməkdar artist Nigar Şabanova deyib.* O, ad çəkməsə də qalmaqalla gündəmdə olan həmkarlarına, xüsusilə də müğənni Rəqsanə İsmayılovaya irad bildirib: ”Sosial şəbəkələrə fikrin dağılsın deyə girirsən, pozitiv enerji almaq istəyirsən. Çünki pandemiya dövrüdür, hərənin bir problemi var. Ürəkaçan nə isə yoxdur. Sosial şəbəkədə də görürsən ki, hamı bir-birini qırır. Nə üçün? İş orasındadır ki, pulu olanlar dalaşır. Sənət adamlarıyıq. Təəssüf ki, öz adımızı qalmaqallı, pis çıxarmışıq.

Özü də qadınlar mübahisə edir, onların yaşlarına, dünəninə baxırsan. İndi isə hamı aydan arı, sudan duru olub. Düşünürsən ki, niyə belə edirlər? Nəyə görə bir-birinizi gözdən salırsınız?

Kiminsə nəyindənsə bəhs edirlər, telefon qabağında kişi-kişi danışırlar. Dünənlərini yaddan çıxarıb, bu gün təmiz söhbət edirlər. Fikirləşirlər ki, hamı elə biləcək ki, o superdir, ondan yoxdur. Hamı birbirinə ağıl öyrətməyə çalışır. Baxırsan ki, müəyyən yaşı, keşməkeşli həyat yolu var”.

**Samirə Ərəblinski**

# "Bu görüntü məni öldürür"

## Roza Zərgərli mərhum müğənninin məzarını paylaşdı




**Müğənni Roza Zərgərli bir neçə gün öncə faciəvi şəkildə vəfat edən həmkarı Aslan Hüseynovdan yazıb.**

”Şərq” xəbər verir ki, o, mərhumun məzarını paylaşaraq bu qeydi əlavə edib: ”Bu görüntü məni öldürür. Belə olmamalı idi”.

*Xatırladaq ki, Alsan Hüseynov avtomobil qəzasında dünyasını dəyişib. 55 yaşlı müğənni Qaradağ ərazisində qəzaya düşüb.*

**Samirə**

# Mətanət İsgəndərlinin oğlu sağalıb

## “Allah bizi tapşıranların canını sağ eləsin”



**Koronaya yoluxan Əməkdar artist Mətanət İsgəndərlidən xəbər var. Onun oğlu Kərim instaqramda video paylaşıb. Kərimin görüntülərini müğənni Könül Kərimova öz profilində yerləşdirib.**

”Şərq” xəbər verir ki, Kərim hər şeyin yaxşı olduğunu söyləyib: ”Sabah xəstəxanadan çıxa bilərəm. Burada bizə yaxşı qulluq edirlər. Allah bizi tapşıranların da canını sağ eləsin. Tam sağaldıqdan sonra hər kəsə ayrı-ayrılıqda təşəkkür edəcəyik”.

*Qeyd edək ki, sənətçinin həm özü, həm də oğlu Rusiyada koronaya yoluxub.*

# Anası ilə yarışır

## Qızı da ondan geri qalmır




(Əvvəli səh: 16-da)

Cütlük nişanlanıb, lakin hamı onlardan evlilik xəbəri gözlədiyi sırada ayrılıq qərarı veriblər. Buna baxmayaraq İrina ilə Bredli kiçik qızları Leanın xətrinə tez-tez bir araya gəlirlər.

Bredli də tez-tez məhz qızını məktəbdən gətirərkən görüntülənir. İrina Şeyk ana olduqdan sonra belə açıqlama vermişdi: "Övlad sahibi olmaq insanın özünə dönüşməsi deməkdir. Əks halda bir yalanın içində yaşamağa məhkumsunuz". İ.Şeyk "nümunəvi ana olmaq özünü büsbütün övlada həsr etmək deyil, sevdiyin şeyləri etməyə də vaxt tapa bilməkdir. Ana olduğum üçün niyə dəyişim ki?! Analıq sadəcə, hıyatımıza əlavə edilən yeni bir bölümdür", demişdi. İ.Şeyk analıq anlayışının Vətəni Rusiyada rus qadınlarından əxz etdiyini deyib: "qadın hər işi çatdırır. İşə gedir, uşaqlarına baxır, işdən gəlir, evdə yemək hazırlayır, bütün ağır işləri görür, hər işi bacarır". Məşhur model həyat dərsini ailəsində aldığını deyib: "Ətrafımızda kişi yox idi. Həyatda hər şeyi bilməyi, hər işi bacarmağı öyrənmək zorundasan. Məsələn, mən kartof və ya xiyar necə becərilir, bilirəm. Çünki Rusiyanın sərt qışını keçirmək üçün bunları mütləq bilməlisən". İrina Şeyk "ulduz" futbolçu Kriştiano Ronaldo ilə də eşq yaşayıb, lakin sonra, bir məlumata görə, Ronaldonun anasının təkidi ilə ayrılıblar. Şeyk ilə Bredli isə qızları üçün bir araya gəlməyi bacarır. Lea bəzən anası və ana nənəsiylə, bəzən də atası və ata nənəsiylə birlikdə yaşayır. Bredli Coopersə ata olmağın onu çox dəyişdirdiyini söyləyir: "Leanın oyuncaqları oynayır, saatlarla cizgi filminə baxıram. Və bunları edərkən həyatımı boşuna yaşamadığımı hiss edirəm".

**Məlahət**

# "Oturacaq" gəlir....

## Meqanın uşaqlara həsr olunan sürpriz kitabı mübahisələr yaratdı

(Əvvəli səh: 16-da)



Bəziləri müəllifin adının məhz bu cür yazılmasını satış strategiyası kimi dəyərləndirir, bəziləri isə Meqanın evlilik nəticəsində əldə etdiyi soyaddan bu şəkildə istifadə etməsinin doğru olmadığını bildirir. M.Markl deyib ki, hər bir ailə "Oturacaq"da özünə oxşar nəsə tapa bilər. Kitab həmçinin audio-formatda da nəşr ediləcək, səsləndirməni də Meqan özü edəcək. Xatırladaq ki, M.Markl şahzadə Harri ilə evlənməmişdən əvvəl aktrisalıq edib, bir neçə filmə çəkilib. M.Markl və şahzadə Harri 2020-ci ildə Kral ailəsindən ayrıldıqlarını rəsmən elan etmişdilər. Bununla da Kral ailəsi barədə dedi-qodular başlamışdı. Lakin hersoq və hersoginya yayılan söz-söhbətlərə əhəmiyyət verməyərək Böyük Britaniyanı tərk edib ABŞ-a köçdülər və hazırda Los-Ancelesdə yaşayırlar. Kral ailəsi şahzadənin Meqanla evlənməsinə razı olmamışdı. Meqan evlənib boşanmış qadın idi, üstəlik də aktrisa. Lakin şahzadə bir müsahibəsində "mən onda anam Dianının xüsusiyyətlərini görürəm", demişdi. Meqan Markl şahzadəni təsirləndirə bilmişdi. Nəticədə onlar, kral ailəsinin, kraliçanın etirazlarına baxmayaraq evləndilər. Yayılan xəbərlərdə Meqanın ikinci dəfə ana olmağa hazırlaşdığı da deyilir.

**Məlahət**

# Saniyədə 4630 dollar qazanıb

## Bill Qeytsin sərvəti haqqında maraqlı detallar üzə çıxıb



**Dünyanın ən zəngin adamları sırasında 4-cü yerdə olan "Microsoft"un qurucusu Bill Qeytsin sərvəti haqqında maraqlı detallar üzə çıxıb.**

"Şərq" türk mediasına istinadən həmin detalları açıqlayır.

**1**. Bill Qeyts keçən il 41 milyard dollar əlavə gəlir əldə edib.

**2**. Milyarder keçən il saniyədə təxminən 4630 dollar qazanıb.

**3**. Qeyts gündə bir milyon dollar xərcləyirsə, sərvətini bitirmək üçün ona 400 il vaxt lazımdır.

**4**. O, ingilis monarxiyasından təxminən 66 faiz daha zəngindir.

**5**. Bill Qeyts əsl sərvətini Paul Allen ilə birlikdə qurduğu "Microsoft"a borcludur. 2019-cu ildə şirkətin yalnız 1,3 faizinə sahib olan Qeytsin sərvəti hələ də 146 milyard dollar dəyərindədir.

**6**. 65 yaşlı milyarder illərdir ki, xeyriyyə fonduna 41 milyard dollar bağışlayır. Bu yüksək ianələrə baxmayaraq, dünyanın ən varlı insanları siyahısında dördüncü yeri tutmağa davam edir.

**7**. Bill Qeyts Asiyadakı və Çindəki ən zəngin insandan daha varlıdır.

**8**. Qeytsin sərvəti Lüksemburq, Estoniya və Bosniyanın ümumi daxili məhsulundan daha çoxdur.

**Yeganə Bayramova**

# 1 avroya 3 ev aldı

## Həqiqəti öyrəndikdə isə şok oldu




(Əvvəli səh: 16-da)

İş qadını olan Rubia Daniyels də 2019-cu ildə İtaliyanın Mussmeli və Siciliya əyalətlərində 1 avroya ev almış ilk alıcılardan biridir. Qadın əvvəlcə özü üçün ev alıb, sonra da 3 övladı üçün ayrı-ayrılıqda ev alıb. Lakin evlərin sənədləşmə prosesində gözləmədiyi qaydalarla qarşılaşıb.

"Şərq" "Hürriyət"ə istinadən xəbər verir ki, iş qadını ev alqı-satqısında qarşılaşdıqlarını "Daily Mail"ə danışıb: "Əvvələ, elə bilməyin ki, ev üçün 1 avro ödəməklə iş bitmiş olacaq. Mussomelidə ev almısınızsa, 13 il ərzində onu təmir etməli, yeniləməli və ya 5 min avro depozit ödəməlisiniz. Əgər 13 il ərzində evlər təmir edilməzsə, depozitlə vidalaşacaqsınız. Təmir qiymətləri kvadrat metr üçün 100 avro ilə 700 avro arasında dəyişir. Evlərin ölçüsü 11-lə 190 kvadrat metr aralığındadır. R.Daniyels indiyədək evə lazım olan materiallar üçün 12 min dollar xərcləyib və bu işin ona ümumilikdə 20 min dollara başa gələcəyini təxmin edir. Evin yenidənqurma xərcləri hətta 133 min avroyadək çıxa bilər. Mussomelidə alıcının evin iç hissəsinə istədiyi dəyişiklik etmək izni verilir, lakin çöl tərəfdən ev olduğu kimi saxlanmalıdır". R.Daniyels yerli təmir şirkətlərinin yeni alıcılara ürəklə yardım etdiyini, hər şeyi dəqiq ölçüb-biçdiklərini deyib: "Plan təqdim edirsən, sənə çox yaxşı təkliflər verir, rəhbərlik edirlər. Təmir işləri üçün artıq xərc çıxmasın deyə, özləri evə gəlib hər şeyi ölçürlər. R.Daniyels pandemiyanın işlərini axsatdığını da deyib, lakin qeyd edib ki, artıq 20 nəfərə mülk satın almaqda yardım edib. Sadəcə, bölgələrdə ev satınalmalarda qaydalar dəyişə bilir. Alıcılar buna diqqət etsinlər.

**Məlahət**

**Elan**

*"Qarabağ" ASC səhmdarları növbəti ümumi yığıncağının 29 iyun 2021-ci il saat 12:00-da keçiriləcəyini elan edir. İclasın gündəliyində aşağıdakı məsələlər durur.*

1. Səhmdar cəmiyyətin idarəetmə orqanlarının 2020-ci il üzrə maliyyə təsərrüfatı fəaliyyətinin hesabatı və balansın təsdiqi.
2. Digər məsələlər.

İclasın keçiriləcək ünvanı: Bakı şəh., Nizami r-nu, A.Manafov küçəsi 20.

---

Leytenant Nəcəfov Azər Şəhriyar oğluna məxsus MN 0058304 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Leytenant Mustafayev Elməddin Elşad oğluna məxsus MN 0058200 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Məcburi Köçkünlər üzrə Dövlət Komitəsi tərəfindən İsmayılov Umud Əşrəf oğlunun adına verilmiş köçkünlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun I müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535 **www.sherg.az** e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı. **Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 820







# Sümüklər 3 yaşlı uşağa aiddir

## Ən qədim insan qəbri aşkarlanıb

**Arxeoloqlar Afrikadakı araşdırma zamanı qitədəki ən qədim insan qəbrini aşkarlayıblar.**

"Şərq" "Haberturk.com"a istinadən xəbər verir ki, Keniyanın cənub-şərqində yerləşən "Panga ya Saidi" mağarasında aparılan qazıntılar zamanı tapılan sümüklər təxminən 80 min il əvvəl dəfn edilmiş 3 yaşlı uşağa aiddir.

Arxeoloqlar 2013-cü ildəki qazıntıdan sonra ilk hissələri aşkarlanan sümüklərin çox həssas vəziyyətdə olduğunu görüblər. Daha sonra isə sümüklərin zərər görmədən bölgədən çıxarılması üçün 4 ildən çox vaxt lazım olduğunu qeyd ediblər.

*Maks Plank İnstitutunun professoru Mikael Petraqlia qazıntılar zamanı tapılanların Afrikada ən qədim insan qəbri olduğunu söyləyib.*

**Yeganə**

# 1 avroya 3 ev aldı

## Həqiqəti öyrəndikdə isə şok oldu





**İtaliya tərk edilmiş, çox az sayda əhali yaşayan bölgələrdəki baxımsız evləri bir ildir ki, satışa çıxarır.**

Qiymət çox ucuzdur - 1 avro! İtaliyada son illərdə bu səpkili ev alqı-satqısı geniş yayılıb. Yerli bələdiyyələr Bizans dövründən qalma memarlığa sahib evlərin baxımsız, kimsəsiz qalmasını görür və tarixi məkanlara həyatın yenidən qayıtması üçün bu cür cazibəli üsullara əl atır, alıcılara ilkin ödənişsiz evlər təklif edirlər. Bu evlərin sakinləri ya artıq həyatda yoxdur, ya da sahibləri onları tərk edib başqa yerlərə köçüb.

*(Davamı səh: 15-də)*

**Məlahət**

# Hava kirliliyi

## Kişilərdə yaddaşı pozur



**Kolumbiyada aparılan bir araşdırma nəticəsində hava kirliliyinin yaşlı insanlara verdiyi ciddi zərər məlum olub.**

Axşam.az xəbər verir ki, araşdırmaya əsasən hava kirliliyinə məruz qalan kişilərdə yaddaş pozğunluğu müşahidə olunub. Bu vəziyyət yaş ortalaması 69 olan kişilərdə yaxşı düşünmə, səlis nitq və kəlmə yaddaşına mənfi təsir göstərib. Kolumbiyadakı araşdırmada 1000 kişi iştirak edib və onlarda kirli havaya məruz qaldıqdan sonra nitq, yaddaş problemləri meydana gəlib.

*Alimlər qlobal bir problem olan hava kirliliyinin insan sağlamığına böyük təhlükə olduğunu vurğulayıblar.*






# "Oturacaq" gəlir....

## Meqanın uşaqlara həsr etdiyi sürpriz kitabı mübahisələr yaratdı




**Böyük Britaniya kral ailəsinin ən çox mübahisə doğuran üzvü Meqan Markl - şahzadə Harrinin həyat yoldaşı növbəti sürprizlə yenə gündəmə gəlib.**

"Hürriyet"də yer alan xəbərə görə, Meqan Markl uşaqlara həsr olunan "Oturacaq" adlı kitab qələmə alıb. Kitab iyun ayında satışa çıxarılacaq. Meqan Markl kitabın ideyasının oğlu Arçi dünyaya gəldikdən sonra həyat yoldaşı Harriyə yazdığı bir şerdən qaynaqlandığını bildirib. Kitabda ata ilə oğulun hekayəsi anladılır. Meqan Markl kitabı şahzadə Harrinin oğlu ilə münasibətləri və övladının tərbiyəsində atanın rolu əsasında yazıb. Kitabın maraqlı illüstrasiyaları var. İllüstrasiyalardan birində atanın oğlunu atıb-tutması təsvir olunub. "Atanın" kamuflyaj uniformada təsviri onun şahzadə Harrini əks etdirdiyinə heç bir şübhə yeri qoymur. Kitabla bağlı mübahisəyə səbəb olan bir başqa məqam da üzlükdə müəllifin adının "Meqan Markl", yaxud həyat yoldaşının soyadı ilə "Meqan Moutnbatten Vindsor" deyil də "Sasseks Düşes Meqan" (Meqan Markl şahzadə Harri ilə evləndikdə Sasseks hersoginyası tituluna sahib olub - red. ) kimi yazılmasıdır.

*(Davamı səh: 15-də)*

# Anası ilə yarışır

## Qızı da ondan geri qalmır





**35 yaşlı məşhur model İrina Şeyk podiumdakı görkəmini gündəlik həyatında da gözardı etmir.**

Tez-tez qızını məktəbə apararkən və ya məktəbdən gətirərkən görüntülənən modelin hər dəfə əla görünüşdə və fərqli bir geyimdə olması gözdən yayınmır. Eyni zamanda Şeykin kiçik qızı da şıq geyimləriylə diqqət çəkir. Qızla anası sanki geyim yarışına çıxırlar. Bu da sosial mediada çox müzakirə edilir. Bəziləri hesab edir ki, İrina Şeykə bu geyimlər məşhur moda evləri tərəfindən reklam xarakterli və ödənişsiz olaraq hədiyyə edilir. Əks təqdirdə bu qədər libasa pul çatdırmaq mümkün olmaz. Hətta yüksək qazanc əldə edən bir model üçün də gün ərzində tez-tez qiyafət dəyişmək çox yüksək məbləğdə pul itkisi deməkdir. İ.Şeykin sosial mediadakı bəzi təqibçiləri isə "Sadəcə üzərinə geyindiyi manto və montları asmaq üçün ayrı bir evə ehtiyac var. Yəqin onun nəhəng bir evi və bu evdə nəhəng geyim dolabı var ki, bu qədər libası ora sığışdıra bilir" yazır. İrina Şeyk aktyor Bredli Cooperlə iki ildən artıq bir müddətdə birlikdə olub.

*(Davamı səh: 15-də)*

# 3D printerdə çap edilmiş ev ilk kirəçilərini qəbul edib



**Hollandiyada yaşayan evli cütlük Avropada tamamilə 3D çap texnologiyasının köməyi ilə tikilmiş ilk evə köçüblər.**

İctnews.az bildirir ki, Eliza Luts və Harri Dekkersə giriş qapısını açmağa imkan verən rəqəmli açar verilib.

Yaşayış sahəsi 94 kvadrat metr təşkil edən evin iki yataq otağı var. Qaya parçası formasında inşa edilmiş və 24 beton elementdən ibarət olan evin tikilməsinə 120 saat vaxt sərf edilib.